QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 065 (5785) **12 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan uğurlu inkişaf yolunda!

*Prezident İlham Əliyevin son addımları bu faktoru təsdiqləyir*



Səh 2

5

**"Uğurlarımızı təhrif etmək istəyənlərə qətiyyətlə cavab verilməlidir"**



5

**"Uğurlarımızı təhrif etmək istəyənlərə qətiyyətlə cavab verilməlidir"**



6

**Mətbuat Şurasının təşkilatçılığı ilə konfrans keçirilib**



# Azərbaycan uğurlu inkişaf yolunda!

## *Prezident İlham Əliyevin son addımları bu faktoru təsdiqləyir*

***Bu gün ölkəmizdə sosial siyasətin fəlsəfəsi iqtisadi inkişafın nəticələrini əhalinin rifah halını yüksəltməyə yönəltməkdir. Məhz vətəndaş amilinə, insan faktoruna qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Prezident İlham Əliyevin apardığı siyasətin mühüm prinsiplərindəndir. Bu baxımdan, Prezident İlham Əliyev Cənablarının rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial siyasətin həyata keçirilməsi, ilk növbədə, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir. Söz yox ki, bu istiqamətdə də son 16 ildə mühüm və ardıcıl addımlar atılmaqdadır. O da, əbəs deyil ki, Cənab İlham Əliyev hər zaman öz çıxışlarında sosial siyasəti dövlət siyasətinin ən zəruri sahələrindən biri kimi dəyərləndirərək, vurğulayıb ki, layiqli sosial siyasət qarşıdakı illərdə də Azərbaycan hökumətinin fəaliyyətinin prioriteti olaraq qalacaq.***



Deməк olar ki, hər il vətəndaşların əməkhaqlarının, pensiyaçıların təqaüdlərinin, aztəminatlı ailələrə, şəhid ailələrinə,



Qarabağ əlillərinə, eyni zamanda, sağlamlığı məhdud olan vətəndaşlara verilən sosial müavinətlərinin artırılması da buna olan bariz sübutdur. Bu, Azərbaycanda insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan zəruri addım kimi qiymətləndirilir.

Misal üçün, Cənab İlham Əliyevin şəhid ailələrinə birdəfəlik yardımın verilməsi məsələsində bu yardımın bütün kateqoriyalara aid edilməsi barədə verdiyi qərarı, eləcə də, şəhid ailələrinin sosial həyatlarının daha da yaxşılaşdırılması üçün 35 milyon manatın ayrılması, habelə, bu ailələrə verilən təqaüdlərin 300 manata qədər artırılması qeyd edilən fikirlərin məntiqi və bariz təsdiqidir.

Ümumiyyətlə, Prezident İlham Əliyev Cənablarının, eyni zamanda, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdəki fəaliyyətləri hər bir azərbaycanlıda tükənməz qürur hissləri oyatmaqdadır. Bu, həm də, o deməkdir ki, Prezident İlham Əliyev bu fəaliyyəti ilə son 16 ildə hər bir azərbaycanlının Prezidenti olduğunu isbatlayıb. Qarşıya qoyulan bütün sosial-iqtisadi məqsədlərə nail olunub, bu işlər davamlı və intensiv xarakter alıb. Ümumiyyətlə, inkişaf edən ölkəmizdə sosial siyasət həyatımızın bütün sahələrinə böyük təsirini göstərməkdədir. Həyata keçirilmiş və yaxın gələcəkdə yerinə yetiriləcək növbəti tədbirlər, nəhəng layihələr respublikada əhalinin sosial vəziyyətinin getdikcə daha da yaxşılaşması üçün əsaslı zəmin yaradır.

Çox önəmli faktdır ki, hər il ölkəmizin başçısının imzaladığı fərman və sərəncamların 65 faizi, məhz sosialyönümlüdür.

### Dövlət siyasətində xalq-dövlət birliyi

Ümumiyyətlə, ölkə Prezidenti İlham Əliyev hakimiyyətdə olduğu son 16 il müddətində daima xalqla birbaşa təmasda olub. İstər xarici siyasətlə bağlı fəaliyyətdə, istərsə də daxili idarəetmədə Prezident İlham Əliyev sadə vətəndaşlara söykənir: "Mən bütün azərbaycanlıların Prezidentiyəm" şüarını gerçəyə çevirir.

Xüsusilə, qeyd etmək lazımdır ki, son 16 ildə hər il yeni iş yerlərinin açılması, yeni istehsalat müəssisələrinin və emal zavodlarının yaradılması artıq bir ənənə halını almışdır. Belə ki, bu dövr ərzində, işsizlik və yoxsulluq 49 faizdən 4,5 faizə düşmüşdür. Ölkədə minlərlə yeni müəssisə yaradılmaqla, 1 milyon 700 minədək yeni iş yeri açılmışdır. 3 mindən çox məktəb, altı yüzdən çox tibb ocağı tikilmiş və ya əsaslı şəkildə təmir edilmişdir. Bölgələrdə 40-dan çox Olimpiya İdman Kompleksi, sosial və mədəniyyət obyektləri inşa edilmiş, Gənclər Evi, Tarix-Diyarşünaslıq muzeyləri, digər çoxsaylı sosial və mədəni obyektlər tikilərək əhalinin istifadəsinə verilmiş, yeni parklar, istirahət mərkəzləri yaradılmış və s. tədbirlər həyata keçirilmişdir. Ən önəmli məsələlərdən biri də ölkədəki qazlaşdırmanın son 7 ildə 51 faiz səviyyəsindən 93 faizə qalxmasıdır ki, bu ilin sonunadək bu göstəricinin 95 faizə yüksəldilməsi planlaşdırılır. Bu dövrdə, hətta sovetlər dönəmində qaz verilməyən yaşayış məntəqələri qazlaşdırılmışdır. MDB məkanında yeni yolların ən çox çəkilişinə görə də öndəyik. Son bir neçə ildə 11 min kilometrdən çox avtomobil yolu tikilmiş, təkcə magistral və şəhərlərarası yollar deyil, həmçinin, kəndlərarası yollar ən qabaqcıl standartlar səviyyəsində yenidən qurulmuşdur.

Bir sözlə, Azərbaycan dövlətinin sosial inkişaf sahəsində əldə etdiyi uğurlu nəticələr, deməyə əsas verir ki, Azərbaycan uğurlu inkişafdadır. Ən başlıcası isə, qazanılan iqtisadi uğurlar sosial siyasətin genişlənməsinə yeni imkanlar yaradır. Çox qürurverici ənənədir ki, həyata keçirilən sosial siyasət tamamilə Azərbaycan vətəndaşının həyatını müsbət istiqamətdə dəyişdirməyə, insanların özlərini güvənli hiss etməyə sövq edir. Qətiyyətlə bildirmək olar ki, Cənab İlham Əliyevin yeritdiyi kurs, nəinki böyük hərflərlə qeyd ediləcək İSLAHAT-dır, hətta islahata inqilabi yanaşma nümunəsidir.

**RƏFİQƏ KAMALQIZI**

# "Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan böyük inkişaf mərhələsi keçib"

## *YAP-ın təşkilatçılığı ilə Ağcabədidə müşavirə keçirilib*






***YAP-ın təşkilatçılığı ilə Ağcabədidə "Məcburi köçkün və şəhid ailələrinin sosial müdafiəsi Prezident İlham Əliyevin siyasətində mühüm yer tutur" mövzusunda müşavirə keçirilib.***

Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Ağcabədi şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib önünə gül dəstəsi qoyublar.

Baş nazirin müavini Əli Əhmədovun iştirak etdiyi müşavirədə YAP-ın Qarabağ bölgəsi üzrə rayon təşkilatlarının fəalları, Ağcabədi rayon ictimaiyyətinin nümayəndələri, Milli Məclisin deputatlarındanTahir Rzayev, Bəxtiyar Əliyev, Bəxtiyar Sadıqov, İlham Məmmədov, Elman Məmmədov iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Siyasi Şurasının üzvü, Ağcabədi rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov bildirib ki, rayon ərazisində ümumilikdə 5999 məcburi köçkün ailəsi məskunlaşıb. Onun sözlərinə görə, rayon ərazisində köçkünlər üçün iki şəhərcik salınıb.

Müşavirədə çıxış edən Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov deyib ki, 1 il bundan öncə Azərbaycan vətəndaşları öz seçimini edərək Prezident İlham Əliyevi yeni müddətə, yəni 2025-ci ilədək dövlət başçısı vəzifəsinə seçiblər. Əli Əhmədov qeyd edib ki, Azərbaycan xalqı tərəfindən növbəti dəfə belə bir seçimin edilməsi, bir yandan vətəndaşların Ulu Öndər Heydər Əliyevin siyasətinə hörmətin, inamın ifadəsi, ikinci tərəfdən isə Prezident İlham Əliyevə bundan əvvəlki fəaliyyəti dövründə Azərbaycanın inkişafı yolunda əldə etdiyi nailiyyətlərinə, uğurlarına verilən qiymətdir: "Sözün həqiqi mənasında Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan böyük inkişaf mərhələsi keçib, ölkəmizin iqtisadiyyatından tutmuş həyatımızın bütün sferalarında ciddi, əhəmiyyətli dəyişikliklər baş verib. Ölkəmizin siması dəyişib, insanların rifahı yaxşılaşıb. Azərbaycan xeyli dərəcədə müasirləşərək, dünyanın uğurlu dövləti kimi qiymətləndirilir".

Baş nazirin müavini bildirib ki, əldə olunan nailiyyətlər, uğurlar Azərbaycan vətəndaşlarına Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti qəti şəkildə dəstəkləməsinə imkan verir: "Məhz bunun nəticəsidir ki, 1 il bundan öncə Azərbaycan vətəndaşları növbəti dəfə seçimlərini İlham Əliyevdə görərək, Ona səs veriblər. Bu doğru seçimdir. Bundan əvvəlki illərin təcrübəsi bu fikri səsləndirməyə ciddi əsaslar yaradır ki, növbəti illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha da inkişaf edəcək, ölkənin iqtisadiyyatı daha da artacaq, möhkəmlənəcək, dövlətçiliyimiz daha da güclənəcək və bunun əsasında vətəndaşlarımızın rifah halında daha ciddi dəyişikliklər əldə ediləcək".

Əli Əhmədov vurğulayıb ki, bundan əvvəlki illər ərzində, xüsusilə də Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 2003-cü ildən ötən müddət ərzində ölkəmizdə baş verən dəyişikliklər elə möhkəm, etibarlı bünövrə yaradıb ki, bu bünövrənin əsasında bütün sferalarda böyük islahatlar aparmaq mümkün olacaq: "İnsanlarımız Prezident İlham Əliyevin görə biləcəyi işlərə inanaraq növbəti dəfə Onu Azərbaycana prezident seçiblər. Mən güman edirəm ki, necə ki 2018-ci ildə əvvəlki illərə qiymət verərək xalqımız Prezident İlham Əliyevi növbəti 7 il müddətinə prezident seçilməsinə səs veriblər, 2025-ci ildə keçiriləcək seçkilərdə biz qəti əminik ki, Azərbaycanın 2018-2025-ci illər ərzində ölkəmizin nə qədər inkişaf mərhələsinin keçdiyinin şahidi olacağıq. Bir neçə ildən sonra biz bu hesabatı Azərbaycan xalqı qarşısında verərək, insanlarımızın göstərdiyi etimadın doğrulduğunu onlara bəyan etmiş olacağıq".

YAP-ın Sədr müavini qeyd edib ki, Azərbaycan sözün əsl mənasında böyük inkişaf mərhələsi yaşayır: "Bu bir çox səbəb və amillərlə bağlıdır. Birincisi, birmənalı şəkildə hər birimizin etiraf etdiyi kimi, Heydər Əliyev siyasəti ilə əlaqədardır. Heydər Əliyev siyasəti Azərbaycana uzun illərdir uğur gətirir. Yeri gəlmişkən onu da bildirim ki, 2019-cu ildə Azərbaycanda Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlməsinin 50 ili tamam olacaq. Bu müddət ərzində Azərbaycan böyük inkişaf mərhələsi keçib. Yaşlı nəsil çox yaxşı xatırlayır ki, 1969-cu ilə qədər Azərbaycan sözün əsl mənasında bütün parametrlərə görə ən geridə qalan respublikalardan biri idi. Lakin Ümummilli Lider hakimiyyətə gəldikdən sonra bir neçə ildən sonra Azərbaycan iqtisadiyyatında, sosial həyatında, sənayedə, kənd təsərrüfatında, o cümlədən mədəniyyətdə böyük dəyişikliklər baş verdi. Azərbaycan Ulu Öndərin rəhbərliyi ilə sovetlər birliyində ən geridə qalmış respublikadan ən inkişaf edən respublikaya çevrildi. Azərbaycanın Heydər Əliyevin gəlişi ilə böyük intibah mərhələsi başlayıb. Bu mərhələ müxtəlif dövrlərə keçərək bu günə qədər davam edir. Ən başlıcası ondan ibarətdir ki, bu illər Azərbaycan üçün həmişə uğurlu, faydalı olub. Azərbaycan respublikasının, ölkəmizin həyatında bütün dəyişikliklər bu illərdən sonra baş verib. İnsanlarımızın həyatında baş verən dəyişikliklər də bu illərlə əlaqədardır. Ayrı-ayrı dövrlərdə insanlarımızın rifahlı yaxşılaşıb, bu gün sözün əsil mənasında Azərbaycan yüksək rifaha, təhlükəsizliyə, sabitliyə nail olan respublikalardan birinə çevrilib".

Azərbaycan hökuməti qarşısında duran vəzifələrdən söz açan Əli Əhmədov bildirib ki, bu vəzifələrdən ən vacibi sosial siyasətin uğurla həyata keçirilməsidir: "Ümumiyyətlə, dövlətin həyata keçirdiyi ən başlıca iki siyasət var ki, birincisi dövlətin, insanların təhlükəsizliyi, ikincisi isə insanların rifah halının, həyat səviyyəsinin yaxşılaşdırılmasından ibarətdir. Məmnunluqla deyə bilərəm ki, Azərbaycan dövləti qarşısında duran hər iki vəzifənin öhdəsindən layiqincə gəlir. Bu gün Azərbaycan ən sabit, insanlarımızın yaşaması üçün ən təhlükəsiz ölkələrdən biridir. Ölkəmizdə sabitlik, əmin-amanlıq, dinclik, rahatlıq bugünkü Azərbaycanın mövcudluğunu xarakterizə edən ən mühüm xüsusiyyətlərdən, vacib cəhətlərdən biridir. Belə hesab edirəm ki, Azərbaycanın bu sabitliyinin, əmin-amanlığının nə qədər böyük dəyər kəsb etdiyini insanlarımız kütləvi informasiya vasitələri, dünyada baş verən hadisələri müşahidə etdikdə daha da dəqiqliklə qiymətləndirə bilirlər.

Əgər sülh, əmin-amanlıq, təhlükəsizlik olmasaydı, əldə etdiyimiz sosial, iqtisadi nailiyyətlər heç bir dəyər, məna kəsb etməzdi. İnsanın həyatından, yaşaması üçün təhlükəsizlikdən böyük dəyər təsəvvür etmək mümkün deyil. Digər dəyərlər, sərvətlər yalnız insanın, ailəsinin təhlükəsizliyinin olduğu şəraitdə məna kəsb edir. Hesab edirəm ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə təhlükəsizliyin təmin edilməsi, sabitliyin, əmin-amanlığın qorunması məhz bu mənada daha mühüm əhəmiyyət kəsb edir və dövlət siyasətində ən vacib yerlərdən birini tutur. Çünki, bu, insanların yaşaması üçün ən vacib şərtlərindən biridir. Yaxşı yaşamaq üçün təhlükəsizlik təmin edilməlidir. Azərbaycan hökuməti qürur hissi ilə qeyd edir ki, bu vəzifənin öhdəsindən layiqincə gələ bilib".

Ardı Səh. 4

# "Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan böyük inkişaf mərhələsi keçib"

## *YAP-ın təşkilatçılığı ilə Ağcabədidə müşavirə keçirilib*

Əvvəli Səh. 3

Baş nazirin müavini deyib ki, qarşıya qoyulan ikinci vəzifə olan vətəndaşlarımızın sosial problemlərinin həll olunması, onların rahat yaşamaları üçün şəraitin təmin edilməsi istiqamətində də böyük işlər, uzun müddət ərzində həyata keçirilib: "Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ayrı-ayrı dövrlərdə bu vəzifəyə xidmət edən müxtəlif hədəflər həyata keçirilib. 1993-cü ildə Azərbaycanda sabitlik pozulmuşdu, əmin-amanlıq yox idi, insanlar çörək növbələrində dayanırdılar. O zaman dövlətin qarşısında duran əsas vəzifə ilk növbədə əmin-amanlığın təmin edilməsi, dinclik, rahatlığın yaradılması, ikincisi isə insanların hiss etdiyi, ağırlığının altında əzildiyi sıxıntılardan, çörəklə imtahana çəkilməkdən azad olmaq idi. Heydər Əliyev bu vəzifəni 1990-cı illərin əvvəllərində hakimiyyətə gəldikdən sonra yerinə yetirdi və daha sonra digər vacib vəzifələrin həyata keçirilməsi zəruri şərt kimi qarşıda dayandı ki, bu da iqtisadi, siyasi islahatlarla bağlı idi. Bütün bunların nəticəsində insanların rifah halının daha da yaxşılaşdırılması üçün zəmin hazırlanmalı idi. İqtisadiyyatda yüksəlişi təmin etmədən hökumətin həyata keçirməli olduğu sosial siyasətin reallaşması üçün resurslar yaradılmadan, niyyətin nə qədər çox, arzun nə qədər böyük olsa da sosial siyasətin həyata keçirilməsi sadəcə olaraq mümkün ola bilməzdi. Buna görə də Azərbaycan hökumətinin seçdiyi yolun mahiyyəti insanların rifah halının yaxşılaşdırılması üçün daha layiqli sosial siyasət həyata keçirməyə xidmət edən iqtisadi, maliyyə zəmini yaratmaqdan ibarətdir. Bu baxımdan Heydər Əliyev tərəfindən həyata keçirilən islahatlar, daha sonra Prezident İlham Əliyevin hakimiyyətə gəlməsindən sonra həyata keçirilən iqtisadi islahatlar məhz bu məqsədlərə xidmət edir. İqtisadiyyatı gücləndirmək, güclənən iqtisadiyyatın yaratdığı imkanlardan istifadə edərək insanlarımızın rifah halının yaxşılaşdırılmasına nail olmaqdır. Hesab edirəm ki, bu vəzifəni iqtisadi islahatlar həyata keçirməklə sosial siyasətdə uğurlara imza atılıb".

"Eyni zamanda minimum pensiyanın 116 manatdan 160 manata çatdırılması da məhz əldə olunan maddi bazanın sayəsində atılan addım, həyata keçirilən aksiyalardır. Bu eyni zamanda insanların rifah halının yaxşılaşdırılması üçün ölkə başçısı tərəfindən atılan cəsarətli bir addımdır. Müavinətlərin, minimum əmək haqlarının, pensiyaların bir dəfəyə 40 faizədək artırılması böyük maliyyə vəsaiti tələb edən cəsarətli addımdır. Azərbaycan hökuməti birincisi, insanların rifahının yaxşılaşdırılması ilə bağlı çox ciddi addımlar atmağa hazırdır, bu hökumətin həyata keçirdiyi siyasətin əsas vəzifələrindən biridir. İkincisi isə bu cəsarətli addımı atmaq üçün etibarlı baza yaradılıb. Sərəncamların sayı həddindən artıq çoxdur. Çox müxtəlif təbəqələrin həyatının yaxşılaşdırılmasına əsas yaradan sərəncamlar imzalandı, addımlar atıldı. 600 minə yaxın insan təkcə minimum əmək haqlarının artırılması istiqamətində atılan addımdan bəhrələnmiş oldu. Bu rəqəmi eynilə minimum əmək pensiyası alanlara da şamil etmək olar. Minimum əmək haqlarının 180 manata qaldırılması o deməkdir ki, ölkəmizdə bundan az əmək haqqı alan olmayacaq, bunun nəticəsində həyatı yaxşılaşan insanlar daha da çoxalacaq. Bu avtomatik olaraq digər səviyyələrdə əmək haqqı alanların maaşlarının artırılmasına səbəb olacaq. Əlillərin, müxtəlif səbəblərlə əlaqədar əlillik pensiyası alanların, Qarabağ müharibəsi əlillərin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bağlı çox ciddi güzəştlər tətbiq edilib, aldıqları müavinətlərin səviyyəsi artıb. Elə bir təbəqə qalmayıb ki, onların həyat səviyyəsinin yaxşılaşdırılması üçün bu və ya digər formada güzəşt və müavinətlər artırılmasın. O cümlədən məcburi köçkünlər üçün verilən müavinətlərin də 50 faiz artırılması, bu kateqoriyadan olan dövlət yardımları hesab oluna bilər. Prezidentin həyata keçirdiyi siyasətin əsas məqsədi, başlıca niyyət insanların rifah halının yaxşılaşdırılması, onlara göstərilən qayğının daha da artırılması və onun həyat yaşayışının müasirləşməsidir. Təbii ki, bütün bunların hamısı iqtisadi bazanın yaradılması sayəsində mümkün ola bilər. Ona görə də , bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi altında, birbaşa təşəbbüsü nəticəsində geniş miqyaslı iqtisadi islahatlar həyata keçirilir. Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə əlaqədar görülən tədbirlər, ölkəmizdə bu sahənin inkişafı üçün ciddi əsaslar yaratmaqla yanaşı, eyni zamanda kənd yerlərində yaşayan insanların həyatında da çox mühüm dəyişikliklərə səbəb olmuşdur. İnsanlar işlə təmin olunmaq imkanı qazanıblar. Bütün bunların nəticəsində insanlarımızın həyat səviyyəsinin yüksəldilməsi üçün daha etibarlı əsaslar yaradılıb. Dövlətin dəstəyi ilə özünəməşğulluq proqramları həyata keçirilib ki, bu da aztəminatlı ailələrin işlə təmin olunması və özlərinin həyat səviyyəsinin yüksəldilməsi üçün verilən şans kimi qiymətləndirilir. Prezident İlham Əliyevin rəhbərliyi altında 2004-cü ildən indiyədək təxminən 2 milyon yeni iş yeri yaradılıb. Bu da insanların rifah halının yaxşılaşdırılması, daha çox sayda insanların işləmək, əmək haqqı almaq imkanı qazanması nöqteyi-nəzərdən böyük sosial layihə hesab oluna bilər. Bu layihənin həyata keçirilməsi nəticəsində insanların həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib".- deyə, Əli Əhmədov əlavə edib.

YAP-ın Sədr müavini vurğulayıb ki, Azərbaycanda hansı işlər həyata keçirilirsə, nə edilirsə, bütün bunların hamısı yalnız insanların rifahının yüksəldilməsinə, onların daha rahat yaşayışının təmin edilməsi ilə əlaqədardır: "Kommunal layihələrin, işıq, qaz, su təchizatlarının yaxşılaşdırılması insanların məişətinin və yaşayışının rahatlaşdırılmasına xidmət edir. Bu da sosial layihə kimi təqdim oluna bilər. Bu gün Azərbaycanda işıqla bağlı problem yoxdur. Qazla bağlı problemlər demək olar ki həll olunmaq üzrədir. Əhalinin içməli su ilə təmin edilməsi ilə əlaqədər böyük layihələr həyata keçirilir. Beləliklə nə edilirsə, bu yalnız insanın rifahının yaxşılaşdırılması ilə birbaşa əlaqədər, bu vəzifələrin həyata keçirilməsi üçün əsasların, fundamentin yaradılması ilə bağlıdır. Çox vacib istiqamətlərdən biri məcburi köçkünlərin yaşayışının yaxşılaşdırılması ilə əlaqədardır. Təəssüf ki, Azərbaycan illərdir ki, bu problemi yaşamaqdadır. Vətəndaşlarımız erməni təcavüzü nəticəsində yurd-yuvalarını tərk etməyə, məcburi köçkün həyatını yaşamağa məhkum olunublar. Bu, Azərbaycan üçün ağır problemdir. Əhalimizin hər on nəfərindən biri məcbur köçkün statusundadır. Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan əhalisinin 1 faizindən də azını təşkil edir. Amma təəssüf ki, müəyyən səbəblərə, müəyyən dairələrin təsirinə görə Ermənistanın təcavüzü nəticəsində 1 milyona yaxın vətəndaşımız məcburi köçkün vəziyyətində yaşamaqdadır. Azərbaycan dövlətinin, hökumətinin qarşısında duran ən əsas vəzifələrindən biri məcburi köçkünlərin sosial problemlərinin həll edilməsini təmin etməkdir. Müxtəlif dövrlərdə, bu vəzifələrin təsirlik dərəcəsi müxtəlif olub. Vaxtilə insanlarımız çadırlarda, vaqonlarda yaşayırdılar. Lakin 2003-cü ildə cənab İlham Əliyev prezident seçildikdən sonra Azərbaycanda çadır şəhərciklərinin aradan qaldırılması vəzifəsini irəli sürdü. Demək olar ki, qısa müddətdə Azərbaycanda çadır şəhərcikləri ləğv edildi. Prezidentin həyata keçirdiyi layihələr nəticəsində ağır vəziyyətdə yaşayan məcbur köçkünlər müasir mənzillərə köçürüldü. Məcburi köçkünlərin həyatında ciddi dəyişikliklərin baş verməsi mərhələsi başladı. İndinin özündə də bu siyasət davam etməkdədir. Artıq məcbur köçkünlər üçün 100-dən artıq şəhərcik tikilib. Bu şəhərciklərdə onların rahat yaşaması üçün bütün imkanlar təmin edilib, məktəblər, bağçalar, lazımi infrastruktur yaradılıb. Onların işlə təmin olunması üçün də işlər görülür. Təbii, işlər bununla bitmir, bundan sonra da lazım olan işlər həyata keçiriləcək. Bildiyiniz kimi, bu yaxınlarda Prezident İlham Əliyevin iştirakı ilə Bakının Kürdəxana qəsəbəsində böyük şəhərcik istifadəyə verildi. Xeyli sayda məcburi köçkün yeni yaşayış massivinə köçəcək, müasir mənzillərlə təmin ediləcək. Bundan sonra da digər yerlərdə şəhərciklər salınacaq, mənzillər tikiləcək. Sonuncu məcburi köçkün evlə təmin olunanadək bu siyasət həyata keçiriləcək. Bizim hədəfimiz, qarşımızda duran əsas vəzifə məcburi köçkünlərin öz yurd-yuvalarına qaytarmaqdan ibarətdir. Amma bu vəzifə öz həllini tapanadək, Dağlıq Qarabağ münaqişəsi ədalətli şəkildə həllini tapanadək insanlarımızın layiqli yaşayışının təmin edilməsinə ehtiyac var. İnsan layiqli şəraitdə yaşamalıdır. Bu məqsədlə Azərbaycan hökuməti böyük vəsaitlərin xərclənməsinə getmək niyyətini açıq şəkildə ortaya qoyub. Əlbəttə, bu böyük layihədir. Onun həyata keçirilməsi üçün illər tələb olunur. İllərlə məcburi köçkünlərin yaşayış evlərinin tikilməsi üçün 300 milyon manatdan çox vəsait ayrılıb. Həyata keçirilən siyasətin ən vacib məqamlarından biri ondan ibarətdir ki, tikilən mənzillər ən çox ehtiyacı olan ailələr üçün nəzərdə tutulsun. Bu gün ən ağır şəraitdə yaşayan ailələr tikilən binalara köçürüləcək. Hesab edirəm ki, bu ən ədalətli, düzgün yanaşmadır. Hesab edirəm ki, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasəti bütün vətəndaşlarımız, məcburi köçkünlərimiz lazımınca qiymətləndirib, dəyərləndirirlər. Etiraf edək ki, məcbur köçkünlər üçün istifadə olunan vəsait bütün Azərbaycan vətəndaşının hər birinin əməyinin sayəsində əldə olunan vəsaitlərdir. Azərbaycan vətəndaşı bu məsələdə dövlətimizlə həmrəy olduğunu göstərmiş olur. Hesab edirəm ki, Azərbaycan cəmiyyəti üçün xas olan milli birlik, həmrəylik burada özünü göstərir. Bütün vətəndaşlarımız öz səylərini bir yerə cəmləyərək, ağır duruma düşən vətəndaşlarımızın rifahının yaxşılaşdırılması üçün səylərini göstərir, bu siyasətin uğurla yerinə yetirilməsinə dəstəklərini ifadə edirlər. Məcburi köçkünlərimiz də Prezidentin bu istiqamətdə həyata keçirdiyi işləri yüksək qiymətləndirirlər. Bu bizi sevindirir. Azərbaycan cəmiyyəti üçün xas olan birlik, həmrəylik bütün formalarda, sahələrdə özünü göstərməkdədir. Bu, Azərbaycanda xalq-iqtidar birliyini birmənalı şəkildə təsdiq etmiş olur. Bu birlik olmasaydı, Azərbaycanda əldə olunan bu nailiyyətlər, uğur, irəliləyiş bu səviyyədə mümkün ola bilməzdi, ölkəmizin inkişafı intensivlik səviyyəsinə yüksəlməzdi. Qarşımızda duran əsa borc bu siyasəti dəstəkləmək, bu siyasətin uğur qazanmasına töhfə verməkdir. Yeni Azərbaycan Partiyası da dövlət başçısının həyata keçirdiyi siyasətdə yaxından iştirak edən böyük bir zümrədir, partiya sıralarında 740 minə yaxın vətəndaş birləşib. Hesab edirəm ki, Prezident İlham Əliyevin əldə etdiyi uğurların əldə olunmasında Azərbaycanın bütün vətəndaşları ilə birlikdə, YAP üzvlərinin böyük fədakarlığı, əməyi olub. Bu gün partiya olaraq qarşımızda duran əsas vəzifə həyata keçirilən siyasəti dəstəkləmək, onun uğur qazanmasına töhfə vermək, fədakarlıqlar göstərməkdir. İdeoloji sferada da YAP üzvlərinin üzərinə böyük məsuliyyət düşür".

Əli Əhmədov qeyd edib ki, Azərbaycana qara yaxmaq istəyən, uğurlarını götürməyən və müxtəlif formalarda təxribatlar etməklə bu uğurların üzərinə qara yaxmağa çalışan qüvvələr var: "Onlar həm ölkədə, həm də ölkədən kənarda var. Bu siyasətimizin mahiyyətini, uğurlarını təhrif etmək istəyən və müxtəlif yalan informasiyaları yaymaqla əldə olunan nailiyyətlərin həcmini azaltmağa çalışan qüvvələrə YAP-ın hər bir üzvü qətiyyətlə cavab verməlidir. Bu işlər televiziya, digər kütləvi informasiya vasitələrində, internet üzərindən müxtəlif sosial şəbəkələr vasitəsilə aparıla bilər. Sosial şəbəkələr artıq həyatımıza ciddi şəkildə daxil olub. Onlardan qaçmaq, onsuz yaşamaq mümkün deyil. Biz sosial şəbəkələrdə fəallıq göstərməklə bu yalanların ifşa olunmasına çalışmalıyıq. YAP-ın üzərinə düşən vəzifə həyata keçirmək istədiyimiz nailiyyətləri təhrif edənlərə layiqli cavab verməkdir. Biz imkan verməməliyik ki, böhtançılar, yalançılar, xainlər haqq işimizin üzərinə kölgə salsınlar. Bəzi dairələr Prezidentin həyata keçirdiyi böyük sosial layihələri öz adlarına çıxaraq əldə olunan uğurları onların keçirdikləri mitinqlərlə əlaqələndirir, səfeh fərziyyələr irəli sürürlər. Bayaq söylədiyim kimi, sosial siyasətin həyata keçirilməsi üçün əvvəlcədən baza yaradılmalıdır. Bu, digər sahələrdə olan siyasətdən fərqli olaraq böyük, əsasən də geri qayıtmayan vəsaitlər tələb edir. İnsanlara verilən maaşlar, müavinətlər, güzəştlərin tətbiqi üçün böyük vəsait olmalıdır. Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin çox mühüm xüsusiyyətlərindən biri odur ki, O vəd vermir, həyata keçirir. Biz verdiyimiz vədləri real işə çevirməyi bacarırıq. Bu daha səmimi və insanlara xidmət edən siyasətdir. Azərbaycan Prezidentinin gördüyü işlər nəticəsində yaranan imkanlardan son dövrlərdə həyata keçirilən layihələrdə istifadə olunub. Bunu təhrif etmək istəyənlər xalq-iqtidar birliyinin üzərinə kölgə salmaq istəyir. İnsanların qəlbinə şübhə toxumu səpməklə, Azərbaycana problem yaratmaqla öz çirkin niyyətlərinə nail olmağa çalışırlar. YAP olaraq bizim əsas məqsədimiz onların yalanlarını ifşa etməkdir. Beləliklə YAP öz üzərinə düşən missiyanı uğurla həyata keçirə bilər. Bu missiyanı yerinə yetirmək üçün partiyamızın hər bir üzləri insanlar arasında daha fəal olmalı, insanlar arasında ciddi iş aparmalıdır. Biz Azərbaycanın maraqlarının əleyhinə çalışan insanların ölkəmiz haqqında həm xaricdə mənfi təəssüratlar yaratmaq, həm də xalq-iqtidar birliyinə zərbə vurmaq istəyinə mane olmalıyıq. İnanıram ki, o qruplaşmaların həyata keçirdikləri heç bir uğur qazanmayacaq. Xalqın rəyini dəyişdirmək mümkün olmayacaq. Çünki, həyatımızda baş verən dəyişikliklər o qədər böyükdür ki, bunu yalanlarla, böhtanlarla insanların qəlbindən çıxarmaq mümkün deyil. O qədər də böyük zaman keçməyib. ".

Müşavirənin davamında çıxış edən natiqlər Azərbaycanda həyata keçirirlən uğurlu iqtisadi- sosial islahatlar haqqında fikirlərini bildiriblər.

## "Uğurlarımızı təhrif etmək istəyənlərə qətiyyətlə cavab verilməlidir"



"Həm ölkəmizdə, həm də ölkədən kənarda Azərbaycana qara yaxmaq istəyən, əldə olunan uğurları götürməyən və müxtəlif formalarda təxribatlar etməklə bu nailiyyətlərin üzərinə kölgə salmağa çalışan qüvvələr var. Bu mənada zidd siyasətimizin mahiyyətini, ölkəmizin uğurlarını təhrif etmək istəyən müxtəlif yalan informasiyaları yaymaqla əldə olunan nailiyyətlərin həcmini azaltmağa çalışan qüvvələrə YAP-ın hər bir üzvü qətiyyətlə cavab verməlidir". SİA-nın xəbərinə görə, bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini-icra katibi Əli Əhmədov deyib.

YAP-ın sədr müavini söyləyib ki, sosial şəbəkələr artıq həyatımıza ciddi şəkildə daxil olub: "Onlardan qaçmaq, onsuz yaşamaq mümkün deyil. Biz sosial şəbəkələrdə fəallıq göstərməklə bu yalanların ifşa olunmasına çalışmalıyıq. YAP-ın üzərinə düşən vəzifə həyata keçirmək istədiyimiz nailiyyətləri təhrif edənlərə layiqli cavab verməkdir. Biz imkan verməməliyik ki, böhtançılar, yalançılar, xainlər haqq işimizin üzərinə kölgə salsınlar. Bəzi dairələr Prezidentin həyata keçirdiyi böyük sosial layihələri öz adlarına çıxaraq əldə olunan uğurları onların keçirdikləri mitinqlərlə əlaqələndirir, səfeh fərziyyələr irəli sürürlər. Bayaq söylədiyim kimi, sosial siyasətin həyata keçirilməsi üçün əvvəlcədən baza yaradılmalıdır. Bu, digər sahələrdə olan siyasətdən fərqli olaraq böyük, əsasən də geri qayıtmayan vəsaitlər tələb edir. İnsanlara verilən maaşlar, müavinətlər, güzəştlərin tətbiqi üçün böyük vəsait olmalıdır. Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin çox mühüm xüsusiyyətlərindən biri odur ki, O vəd vermir, həyata keçirir".

Ə.Əhmədov qeyd edib ki, YAP verdiyi vədləri real işə çevirməyi bacarır: "Bu, daha səmimi və insanlara xidmət edən siyasətdir. Azərbaycan Prezidentinin gördüyü işlər nəticəsində yaranan imkanlardan son dövrlərdə həyata keçirilən layihələrdə istifadə olunub. Bunu təhrif etmək istəyənlər xalq-iqtidar birliyinin üzərinə kölgə salmaq istəyir, insanların qəlbinə şübhə toxumu səpməklə, Azərbaycana problem yaratmaqla öz çirkin niyyətlərinə nail olmağa çalışırlar. YAP olaraq bizim əsas məqsədimiz yalanları ifşa etməkdir. Beləliklə YAP öz üzərinə düşən missiyanı uğurla həyata keçirə bilər. Biz Azərbaycanın maraqlarının əleyhinə çalışan insanların ölkəmiz haqqında həm xaricdə mənfi təəssüratlar yaratmaq, həm də xalq-iqtidar birliyinə zərbə vurmaq istəyinə mane olmalıyıq. İnanıram ki, o qruplaşmaların həyata keçirdikləri heç bir uğur qazanmayacaq. Xalqın rəyini dəyişdirmək mümkün olmayacaq. Çünki, həyatımızda baş verən dəyişikliklər o qədər böyükdür ki, bunu yalanlarla, böhtanlarla insanların qəlbindən çıxarmaq mümkün deyil. O qədər də böyük zaman keçməyib. 2003-cü ildən indiyədək həyatımızda baş verən dəyişikliklər hər birimizin həyatının ciddi şəkildə yeni səviyyəyə qaldırmasına gətirib çıxarıb. İndi Azərbaycan vətəndaşı sözün əsil mənasında yeni bir şəraitdə, insan üçün daha real, rahat imkanların yarandığı şərait yaşayır".

***Nailə Məhərrəmova***

## Dmitri Savelyev: "Xalq öz vədini şərəflə yerinə yetirən İlham Əliyevə inanır"



42 yaşında ölkə Prezidenti olmaq, xüsusən hakimiyyət sükanını respublikanı uçurumdan xilas etmiş milli lider Heydər Əliyevdən qəbul etmək böyük məsuliyyətdir. Bunu AZƏRTAC-ın müxbiri ilə söhbətində Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq qrupunun rəhbəri Dmitri Savelyev deyib.

Deputat əlavə edib: "İlham Əliyev atasının siyasətini davam etdirərək və Azərbaycanı müstəqil iqtisadiyyatı olan müasir dövlətə çevirərək bu imtahandan alnıaçıq çıxa bildi. Ölkə son 15 ildə planeti özünün inkişaf tempi ilə heyrətləndirərək bir-birinin ardınca dünya rekordlarına imza atır: burada işsizlik və yoxsulluq beynəlxalq miqyasda ən aşağı səviyyədədir. Dünya Davos İqtisadi Forumunun son Qlobal rəqabətqabiliyyətlik hesabatında Azərbaycan 35-ci yeri tutur".

D.Savelyev vurğulayıb ki, Azərbaycan energetika sahəsində bir sıra transmilli layihələr həyata keçirib, iqtisadiyyatın neft sektorunda gücünü artırır və öz nəqliyyat infrastrukturunu fəal şəkildə inkişaf etdirir. Deputat qeyd edib: "Bütün dünya ictimaiyyəti Azərbaycanı regional, beynəlxalq və qlobal əməkdaşlığa hazır olan ciddi tərəfdaş kimi görür. Onun xarici siyasəti öz milli maraqları ilə digər ölkələrin mənafeləri arasında düşünülmüş balansa əsaslanır. Respublikada mədəniyyətlərarası və dinlərarası dialoq həmişə güclü olub. Bu gün isə Azərbaycan multikulturalizm dəyərlərini bütün planetdə yayır. Azərbaycan müsəlman aləmində də güclü mövqeyə malikdir, eyni zamanda Avropa strukturları ilə də fəal qarşılıqlı fəaliyyət göstərir".

D. Savelyev əlavə edib: "Rusiya ilə münasibətlər Azərbaycanın ən yeni tarixinin ayrıca parlaq səhifəsidir, axı İlham Əliyev Rusiya-Azərbaycan strateji tərəfdaşlığının ardıcıl inkişafı istiqamətində səylər göstərir. Onun Prezident Putinlə etimada söykənən münasibətləri qarşılıqlı anlaşmaya kömək edir, birgə iqtisadi layihələrin və möhkəm humanitar əlaqələrin təməlini təşkil edir".

O vurğulayıb ki, dövlət başçısı vəzifəsinin icrasına başladığı ilk vaxtlarda İlham Əliyev milliyyətindən, dini mənsubiyyətindən və siyasi mövqeyindən asılı olmayaraq "bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidenti" olmağı vəd edib. D.Savelyev deyib: "Və xalq ona inanır, çünki İlham Əliyev artıq dördüncü müddətdir ki, doğma ölkəsinin naminə qüsursuz prezidentlik fəaliyyətində öz vədini şərəflə yerinə yetirir".

## Prezident Administrasiyasının məsul işçiləri rayonlarda vətəndaşlarla görüşüblər



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçilərinin respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, aprelin 11-də Beyləqan, Qusar, Lerik, Saatlı rayon sakinləri və Kəlbəcərdən olan məcburi köçkünlərlə görüşlər keçirilib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Müraciətlərin bir hissəsi yerindəcə həllini tapıb, digər müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar, ilk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlətimizin başçısının da dediyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlarda imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Həmçinin görüşlərdə məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb.

Vətəndaşlar bu cür qəbulların təşkilinə, problemlərinin həllinə göstərilən diqqətə görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıqlarını bildiriblər. Aprelin 25-də Prezident Administrasiyasının məsul işçiləri Gəncə, Goranboy, Qobustan, Samux və Zaqatala da vətəndaşları qəbul edəcəklər.

## Səməd Seyidov: "Ermənistanın baş naziri AŞPA-dakı çıxışı ilə göstərdi ki, o, girov vəziyyətindədir"



"Təəssüf ki, Ermənistan rəhbərliyi yenə də reallığı əks etdirməyən fikirlər səsləndirdi, dünya ictimaiyyətini, Avropa Şurasının üzvlərini tamamilə yanlış bir yola istiqamətləndirmək niyyətini göstərdi." Bu fikri Ermənistanın baş naziri Nikol Paşinyanın AŞPA-dakı çıxışından sonra Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AZƏRTAC-a müsahibəsində bildirib.

Səməd Seyidov qeyd edib ki, Ermənistan baş nazirinin çoxlu məntiqi qüsurlara yol verməsi onun çıxışının yalanlarla dolu olduğunu bir daha göstərdi. Paşinyan deyir ki, özündən əvvəlki prezidentlər cinayətlər törədib, Ermənistan iqtisadiyyatını dağıdıb, dövlətin pullarını mənimsəyiblər deyə həbs ediliblər. Onlar cinayətkardır və bu səbəbdən həbsxanadadırlar. Ancaq unudur ki, elə həmin cinayətkarlar Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və onun ətrafındakı 7 rayonu işğal ediblər. Bir cinayəti qəbul edib, digərini qəbul etmirsə, deməli o, cinayətə bəraət qazandırmaq istəyir. Bu isə beynəlxalq təşkilatları və ictimaiyyəti aldatmaqdan başqa bir şey deyil. Bütün beynəlxalq təşkilatlar, ATƏT, Minsk qrupu danışıqların formatının dəyişdirilməməsi haqqında bəyanat veriblər. Amma Ermənistanın baş naziri çıxışında əvvəl deyir formatı dəyişmək istəmirik, sonra isə deyir ki, bəs Dağlıq Qarabağda yaşayan insanları dəvət etmək istəyirik.

S.Seyidov qeyd edib ki, Dağlıq Qarabağın sakinləri təkcə ermənilər deyil. Dağlıq Qarabağda azərbaycanlılara qarşı etnik təmizləmə apardıqdan sonra erməniləri danışıqlara gətirmək heç bir məntiqə uyğun deyil. Paşinyan məğlub olduğunu anlayır, bilir ki, geriyə yol yoxdur. Azərbaycanın təşəbbüsü olub ki, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının üzvləri görüşüb danışsınlar. Ancaq Ermənistan bizim bu təşəbbüsün əleyhinə çıxdı. Ermənistan hər iki icmanın üzvlərinin görüşüb danışmasına etiraz etdi. Ermənistanın baş naziri bu çıxışla Avropa Məhkəməsinin "Çıraqov və başqaları Ermənistana qarşı" işi ilə bağlı qərarını inkar edərək beynəlxalq ictimaiyyəti aldatmağa cəhd edir. Ümumiyyətlə, bu çıxış aydın göstərdi ki, Ermənistan rəhbəri girov vəziyyətindədir. Girov vəziyyətində fəaliyyət isə xalq üçün faciənin hazırlanması deməkdir.

S.Seyidov vurğulayıb ki, bu gün Azərbaycan torpaqlarının işğal edilməsi ilə bağlı faktlar beynəlxalq ictimaiyyətə, eləcə də Avropa Şurası üzvlərinə məlumdur. Dünən AŞPA-nın sessiyası çərçivəsində "Azərbaycanın işğal olunmuş ərazilərində və onlara münasibətdə qanunsuz fəaliyyətlər: Avropa Şurası qarşısında götürülmüş öhdəliklər baxımından nəticələr" adlı çox uğurlu panel iclasımız oldu. Faktlar, dəlillər geniş ictimaiyyətə yayılıb. Beynəlxalq səviyyəli sənədlərimiz var. "Düşünürdüm ki, Ermənistan rəhbərinin çıxışı haradasa etiraf xarakterli, müəyyən edilmiş istiqamətdə olacaq. Amma təəssüf ki, yenə də yanlış istiqamətdə oldu", - deyə nümayəndə heyətinin rəhbəri bildirib.

## Gürcüstan saytında "Azərbaycan beynəlxalq arenada: uğurlar və perspektivlər" adlı məqalə yayılıb




Gürcüstanın gaxa.ge saytında AZƏRTAC-ın xüsusi müxbiri Xətayi Əzizovun "Azərbaycan beynəlxalq arenada: uğurlar və perspektivlər" adlı məqaləsi yayılıb. Məqalədə dövlətimizin başçısı İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsindən ötən bir ərzində ölkəmizdə görülən işlərdən və qazanılan uğurlardan bəhs olunur. Məqalədə Prezident İlham Əliyevin son bir ildə etdiyi xarici səfərlərə, keçirdiyi görüşlərə, eləcə də xarici ölkələrin dövlət başçılarının Azərbaycana səfərlərinə nəzər salınır, aparılan danışıqların, imzalanan sənədlərin əhəmiyyəti qeyd olunur.

# "Azərbaycan xalqı İlham Əliyevi ölkədəki sürətli inkişafın, siyasi sabitliyin qarantı hesab edir və onu dəstəkləyir"



***Bu gün hər bir azərbaycanlı hansı ölkədə yaşamasından asılı olmayaraq, Azərbaycan dövlətinin, xüsusilə Prezidentin dəstəyini hiss edir və bundan qürur hissi duyur.***

Bu fikri AZƏRTAC-a müsahibəsində Əbu-Dabidə yaşayan soydaşımız, Əbu-Dabi Universitetinin müəllimi, şərqşünas və tədqiqatçı alim Şəhrizad Süleyman söyləyib.

Şəhrizad Süleyman qeyd edib ki, bir il bundan əvvəl Azərbaycan xalqının böyük əksəriyyəti Ulu Öndərimizin layiqli varisinə - İlham Əliyevə səs verdi. Hər bir addımında ümummilli lider Heydər Əliyevin yüksək ideyalarına sadiqlik nümayiş etdirən dövlət başçısının həyata keçirdiyi çoxşaxəli siyasətin məqsədi Azərbaycan vətəndaşı üçün firavan həyat tərzinin təmin olunması, ölkədə azad və demokratik cəmiyyətin qurulmasıdır. Bütün bu proseslərdə Azərbaycan Prezidentinə ən böyük dəstək xalqdan, ölkənin tale yükünü İlham Əliyevə etibar edən vətəndaşlardan gəlir. Bu gün Azərbaycan xalqı İlham Əliyevi ölkədəki intibahın, siyasi sabitliyin, əmin-amanlığın və sülhün qarantı hesab edir, ona tam güvənir. Çünki xalq öz həyatında baş verən böyük dəyişikliklərin, Azərbaycanı parlaq sabaha doğru aparan siyasi kursun əhəmiyyətini dərindən dərk edərək qiymətləndirir və bu siyasəti birmənalı şəkildə dəstəkləyir. Prezident İlham Əliyevin qətiyyətlə davam etdirdiyi sosial-iqtisadi inkişaf strategiyası, böyük şövqlə həyata keçirdiyi islahatlar həm də onun yüksək idarəçilik qabiliyyətinə və mükəmməl iş təcrübəsinə dəlalət edir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, onun müəyyənləşdirdiyi ümummilli inkişaf strategiyasını müvəffəqiyyətlə həyata keçirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə, onun fövqəl intellekt, yüksək idarəetmə bacarığına malik, xalqına, dövlətinə qəlbən bağlı lider olması bir daha təsdiqini tapır. Onu xalqa sevdirən ən mühüm xüsusiyyətləri əsl dövlət başçısına xas qətiyyəti, liderlik xarizması, uğurlu islahatlara imza atması, ölkədə baş verən hətta adi hadisələrə belə dərhal reaksiya verməsi, daim sıravi vətəndaşın yanında olması, Vətənimizin qüdrəti və parlaq gələcəyi naminə atdığı hər bir addımda milli maraqları öndə tutmasıdır. Dövlətimizin başçısı Azərbaycan bayrağının ali tribunalarda qürurla dalğalanması üçün zəruri addımlar atır, ölkəmizin iqtisadi və hərbi qüdrətini gücləndirmək, mədəniyyətlərarası dialoq mərkəzi kimi beynəlxalq nüfuzunu artırmaq yolunda şövqlə, qətiyyətlə çalışır. O, Ali Baş Komandan olaraq, müzəffər ordusu ilə bərabər torpaqlarımızın düşmən tapdağından azad edilməsi üçün böyük əzm və cəsarət göstərir. Görülən bütün işlər, qazanılan uğurlar Azərbaycan xalqının, sıravi vətəndaşın daha xoş güzəranını təmin etmək məqsədi daşıyır. Bir sözlə, xalq öz Prezidentinə, Prezident isə öz xalqına arxalanır. Bu gün nəinki Azərbaycanda, eləcə də ölkə hüdudlarından kənarda məskunlaşan hər bir azərbaycanlı harada yaşamasından asılı olmayaraq, Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin dəstəyini, gücünü hiss edir və bundan iftixar hissi duyur. Prezidentimiz xarici ölkələrə səfərləri zamanı gərgin iş qrafikinin olmasına baxmayaraq, Vətəndən kənarda yaşayan soydaşlarımızla görüşlərə məxsusi diqqət ayırır, onların qayğı və problemləri ilə yaxından maraqlanır, mövcud çətinliklərin aradan qaldırılması istiqamətində lazımi tədbirlər görür.

Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin nəticələrindən danışan Ş.Süleyman ölkə başçısının rəhbərliyi ilə doğma Vətənimizin, sözün həqiqi mənasında, gündən-günə gözəlləşdiyini və sürətlə inkişaf etdiyini bildirib. O, çalışdığı ali təhsil ocağının tələbələri ilə hər dəfə Azərbaycana gələndə böyük dəyişikliklərin, sürətli inkişafın, qayda-qanunun, səliqə-sahmanın, bir sözlə, ecazkar gözəlliyin şahidi olduğunu vurğulayıb. Sevimli paytaxtımızın bir-birindən yaraşıqlı küçələri, müasir üslubda möhtəşəm quruculuq işləri, yeni inşa edilən göydələnləri Bakını dünyanın ən modern şəhərlərindən birinə çevirib. Ölkəmizə təşrif buyuran əcnəbi qonaqlar, saysız-hesabsız turistlər nəinki paytaxt Bakının, eləcə də əsrarəngiz təbiəti, qeyri-adi möcüzəvi məkanları ilə göz oxşayan regionlarımızın gözəlliklərə valeh olurlar. Ölkədə vüsət alan abadlıq, quruculuq işlərinin, bütün bu gözəlliklərin memarı məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir.

Müsahibimiz vurğulayıb ki, 11 aprel 2018-ci il ölkəmizin ictimai-siyasi həyatında əlamətdar bir gündür. Ötən ilin bu günündə Birləşmiş Ərəb Əmirliklərində yaşayan azərbaycanlılar da Azərbaycanın sabit, təhlükəsiz və çiçəklənən uğurlu gələcəyi naminə yekdilliklə İlham Əliyevə səs verdilər. Ölkəmizin daxili və xarici siyasətində ötən bir il ərzində əldə edilən möhtəşəm nailiyyətlər öz seçimimizdə yanılmadığımızı sübut etdi. Birləşmiş Ərəb Əmirliklərində və digər xarici ölkələrdə yaşayan və çalışan azərbaycanlılar doğma Vətənimizdə həyata keçirilən siyasi-iqtisadi siyasətin, sabitliyin davamlı olmasını arzulayırlar. Biz hər bir sahədə Azərbaycana xidmət etməyə hazır olduğumuzu bəyan edir və dövlətimizin başçısı, qayğıkeş liderimiz, hər bir azərbaycanlının Prezidenti olmağı bacaran İlham Əliyevin çoxşaxəli fəaliyyətini, daxili və xarici siyasətini daim dəstəkləyirik.

# Mətbuat Şurasının təşkilatçılığı ilə konfrans keçirilib




***Dünən Beynəlxalq Mətbuat Mərkəzində Mətbuat Şurasının təşkilatçılığı ilə "İnformasiya mühitində uşaq və yeniyetmə hüquqlarının qorunması: mövcud yanaşmalar və tələblər" mövzusunda konfrans keçirilib.***

SİA-nın verdiyi məlumata görə, tədbiri giriş sözü ilə açan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov bildirib ki, Elina Hacıyevanın intiharı ilə bağlı yayılan məlumatlardan danışıb: "Belə şayiələr yayılıb ki, guya intihara cəhd edəndən sonra o, məktəbdə bir neçə saat saxlanılıb, təcili yardım gec gəlib. Təhsil Nazirliyində araşdırma başlanıb, Səbail rayon prokurorluğunda cinayət işi başlanıb. Hadisənin səbəbləri cəmiyyət tərəfindən də araşdırılmalıdır. Buna görə də biz millət vəkilləri və ekspertləri toplamışıq ki, məsələni müzakirə edək".

Daha sonra millət vəkili Fazil Mustafa bildirib ki, bəziləri bu məlumatın yayılmasını düzgün hesab etmir: "Bu məsələdə mətbuatı qınamaq düzgün deyil. Çünki mətbuat bunu xəbər kimi yayıb, intiharı təbliğ kimi yox. Bu gün orta məktəblərdə də problemlər var. Bəzi məktəb direktorları yerində deyil. Bu gün çayxanalarda yeniyetmələrdən yer yoxdur. Hamısı qəlyan çəkir. Müəllim valideynin qorxusundan şagirdə irad tuta bilmir. Valideynlər müəllimlərə irad tutur. Biz bu problemləri aradan qaldırmağa çalışmalıyıq. Məktəblərin qarşısında qəlyanxanalar, siqaret köşkləri var. Bu, olmaz. Bu gün qızlar arasında da siqaret çəkənlərin sayı artıb. Məktəbin 200 metrliyində qəlxanxana, kafe, köşk olmamalıdır. Məktəb bu məsələlərə nəzarət edə bilmir. Elinanın intiharında müəllimi qınamaq olmaz. Müəllim onu intihara sövq etməyib. Məktəb və valideyn münasibətləri tənzimlənməlidir. Müəllimin statusunu qaldırmalıyıq. Valideyn müəllimin şagirdə nəyə görə irad tutduğunu anlamalıdır. Təhsil Nazirliyində komissiya var, bu məslələr tənzimlənməlidir. Bu məsələdə qanunvericiliyi qınamaq olmaz".

Millət vəkili, 295 saylı orta məktəbin direktoru Dilarə Cəbrayılova bildirib ki, məktəbdə mənəvi dəyərlərə söykənən cəmiyyət qurulmalıdır: "Biz məktəbi pisləməklə nə əldə edə bilərik. Biz valideyn olaraq əvvəlcə özümüzü düzəltməliyik. Sonra məktəblə münasibətləri normallaşdırmalıyıq. Məktəblərdə psixoloq ştatlarını artırmaq lazımdır. Məktəb direktoru təyin olunarkən həmin şəxsin psixoloji durumu yoxlanılmalıdır".

Mətbuat Şirası İdarə Heyətinin üzvü Vüsalə Mahirqızı isə bildirib ki, ən çox intihar halları dünyanın ən inkişaf etmiş ölkələrindədir. Azərbaycanda bu məsələnin kütləviləşməməsi sevindiricidir: "İstənilən hadisəyə operativ münasibət bildirilməlidir. Bu məsələdə ailənin də məsuliyyəti var. Şagirdə məktəbdə irad tutula bilər. Amma bu normal ailədə məsuliyyət yaradır. Dünən məsələ ilə bağlı o videonun yayılması qətiyyən yolverilməzdir. Bunu media etməməlidir. Bu media qurumları hüquq mühafizə orqanları tərəfindən araşdırılmalıdır. Media bu məsələdə günahkar tərəf olmağa doğru gedir. Müəllim və məktəbə qarşı bu boyda fobiya yaratmaq olmaz".

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu bildirib ki, məktəblərdə belə hallarla bağlı Təhsil Nazirliyi, Mətbuat Şurası və millət vəkillərindən ibarət ictimai komissiya yaradılmalıdır: "Hadisənin səbəbləri, bu prosesdə mühit araşdırılmalıdır. Məktəb mühiti, ailə mühiti, kollektiv mühiti var. Bu məsələlər ciddi araşdırılmalıdır".

"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid isə bildirib ki, Azərbaycanda 1 milyondan artıq şagird var: "Şagirdlərin psixologiyasına təsir edəcək videoların yayılmasında hər kəs məsuliyyət daşımalıdır. O video haradan çıxıb, necə yayılıb, bu da bir təhqiqat məsələsidir".

Deputat Kamilə Əliyeva E.Hacıyevanın intiharına görə məktəb rəhbərliyinin də məsuliyyət daşımalı olduğunu söyləyib: "Tərbiyə işləri üzrə direktor müavininin, sinif rəhbərinin işi nədən ibarədir? Amma hər bir şeyi də məktəbin üstünə atmaq olmaz. Hər bir valideyn öz övladını daha yaxşı tanımalıdır. Əgər valideyn bu yaşa qədər qeyri-adilik aşkar etməyibsə, demək, onun da günahı var

"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə hər şeyi məktəbin və ya valideynin üzərinə atmağın doğru olmadığını deyib: "Valideyn-məktəb-şagird üçlüyünü yaratmaq lazımdır. Cəmiyyətin maariflənməsində elektron KİV və sosial şəbəkələr diqqətli olmalıdır".

Deputat Aydın Mirzəzadə hadisədən sonra məktəb direktorunun işdən uzaqlaşdırılmasını düzgün hesab etdiyini bildirib: "Müəyyən hissə ajiotaj yaratmaq və qurumları ittiham etməkdə maraqlıdır. İstintaq başa çatmamış, cəmiyyətdə qıcıq yaradacaq videoları yayan media orqanlarına və sosial şəbəkə istifadəçilərə çağırış edirəm ki, diqqət edək və təsirini düşünək".

Deputat Sona Əliyeva bu tipli xəbərlərə həssaslıqla yanaşılmasının tərəfdarı olduğunu vurğulayıb: "Bu məsələləri məktəbin və medianın üzərinə yıxmaq olmaz".

Daha sonra çıxış edən "Kaspi" Mətbuat və Təhsil Mərkəzinin rəhbəri, "Kaspi" qəzetinin təsisçisi Sona Vəliyeva bildirib ki, bu cür hadisələrin baş verməməsi üçün valideyn məktəb münasibətləri düzgün qurulmalıdır: "Hər birimiz valideynik, övladlarımız bizim canımızdır. Bu gün bu məsələlərin baş verməsinin səbəblərindən biri də ailələrin məktəblə düzgün ünsiyyətdə olmamasından irəli gəlir. Məktəb direktoru ilə valideyn eyni məsuliyyət daşıyır. Valideynlər istəyirlərsə ki, övladları düzgün tərbiyə olunsun heç olmasa həftədə bir dəfə məktəbə getsinlər. Məktəb və ailə sıx birləşməlidir. Uşaq deyəndə ki, müəllim mənə bu sözü dedi, valideyn müəllimin üstünə getməməlidir, məsələnin mahiyyətini öyrənmək lazımdır. Əgər istəmiriksə, bu cür hallar baş versin, daim biz direktorla, sinif rəhbərləri ilə ünsiyyətdə olmalıyıq. Ailə, məktəb və şagird üçbucağı düzgün qurulmalıdır. Eyni zamanda övladlarımızın məktəbdən kənarda nə işlə məşğul olduğundan, sosial şəbəkələrdə kimlərlə dostlaşdığından xəbərdar olmalıyıq. Uşaq, valideyn və müəllim dost olmalıdır". Konfrans diskussiya şəklində davam etdirilib.

***Ceyhun Rasimoğlu***

# Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Azərbaycana rəsmi səfərə gəlib

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenko aprelin 11-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini Valeh Ələsgərov və digər rəsmi şəxslər qarşılayıblar.



# Son bir il ərzində Prezident İlham Əliyevin sosial sahə ilə bağlı verdiyi qərarlar həqiqətən də inqilabi xarakter daşıyır

*Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəblinin yap.org.az-a müsahibəsi*



***-Hadi müəllim, məlum olduğu kimi aprelin 11-də Azərbaycan Prezidenti İlham Əliyevin yenidən dövlət başçısı seçilməsinin bir ili tamam olur. Cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əhəmiyyəti haqqında nə deyə bilərsiniz?***

-Ötən il ölkəmizdə aprelin 11-də keçirilən prezident seçkiləri xalqımızın dövlətimizin başçısı İlham Əliyevə sonsuz inam və etimadını bir daha təsdiqlədi. Bu seçkilərdə parlaq qələbə qazanan cənab İlham Əliyev seçkilərdən keçən bir il ərzindəki fəaliyyəti ilə hər bir azərbaycanlının Prezidenti olduğunu bir daha sübut etdi. Bir il ərzində Azərbaycan bütün sahələrdə inkişaf edib, ölkəmizin daha da güclənməsi üçün uğurlu daxili və xarici siyasət həyata keçirilib.

Məhz Prezident İlham Əliyevin siyasəti nəticəsində bu gün Azərbaycan sosial-iqtisadi sferada sürətli inkişaf yoluna qədəm qoyaraq gələcəyə doğru inamla addımlayır. Əməkhaqları, pensiya təminatı sahəsində aparılan ciddi islahatlar, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün həyata keçirilən geniş proqramlar, sosial sahə ilə bağlı qəbul olunan çoxsaylı qanunlar və s. cəmiyyətin rifah halının yaxşılaşmasına yönəlmiş tədbirlərdir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi sosial siyasəti uğurla davam etdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişafın Azərbaycan modeli formalaşıb və sosial inkişaf məsələləri də dövlət siyasətinin prioritetləri sırasındadır. Dövlət başçısının vurğuladığı kimi, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

***-Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində dövlət başçısı tərəfindən mühüm fərman və sərəncamlar imzalanıb. Bütün bunlar konkret olaraq faktlarda özünün əksini necə tapır?***

- Həqiqətən də, son bir il ərzində Prezident İlham Əliyevin sosial sahə ilə bağlı qərarları, fərman və sərəncamları inqilabi xarakter daşıyır. Bu istiqamətdə atılan addımlar müqayisəyəgəlməzdir. Bilirsiniz ki, seçkilərdə qələbə qazandıqdan sonra Prezident cənab İlham Əliyevin imzaladığı ilk Fərmanın - 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin Onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. 2019-cu il 28 yanvar tarixli Fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu.

Bütövlükdə, ötən bir il ərzində şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin və veteranlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində vacib qərarlar verilib.

Belə ki, şəhid ailələri üçün verilən Prezident təqaüdü artırılıb, bu kateqoriyaya aid olan insanların mənzillərlə və avtomobillərlə təminatı daha da yaxşılaşdırılıb, eləcə də, qaçqın və məcburi köçkünlər üçün aylıq sosial müavinət artırılıb, yeni şəhərciklər inşa edilərək istifadəyə verilib.

Bütün bunlarla yanaşı bu ilin əvvəlindən minimum pensiyanın, minimum əməkhaqqının artırılması da vacib məqamlardan biridir. Fevralın 25-də dövlət başçısının imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı nəticəsində aprelin 1-dən bir sıra ödəmələr əhəmiyyətli dərəcədə artırılıb. Problemli kreditlərin həlli ilə bağlı dövlət başçısının verdiyi qərar və s. addımlar da bir daha təsdiqləyir ki, dövlət siyasətinin əsasında vətəndaş amili dayanır.

"2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır", deyə bəyan edən cənab Prezidentin bu fikirləri Onun uğurlu sosial islahatlar paketinin nailiyyətləri kimi, əhalinin rifah halının yaxşılaşdırılması sahəsində cari ilin ötən dövründə ciddi addımların atılması ilə real təsdiqini tapıb. Bütövlükdə, sosial paketin 3 milyona qədər insanı əhatə etməsi çox yüksək göstəricidir.

***-Bəs əhalinin məşğulluğunun artırılması istiqamətində hansı tədbirlər həyata keçirilir?***

-Əhalinin rifahının yaxşılaşması istiqamətində görülən işlər yalnız maaşların, pensiya və müavinətlərin artması ilə yekunlaşmır. Respublikamızda aparılan sosial siyasətin məzmunu vətəndaşların sosial vəziyyətinin yaxşılaşması ilə bərabər, onların məşğulluğunun artırılması, daha yaxşı yaşamaları üçün əlavə pul gəlirləri əldə etməsindən ibarətdir. Ötən dövrdə bu istiqamətdə atılan bütün addımlar konkret olaraq cəmiyyətin sosial qayğılarının təmin olunmasına əhəmiyyətli baza formalaşdırıb. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları davamlı iqtisadi inkişafı təmin etməklə, sosial sahədə qarşıda duran problemlərin həlli üçün etibarlı zəmin yaradıb. Son 15 ildə 2 milyona qədər iş yerinin açılması da ölkə Prezidentinin bu sahədə uğurlu siyasətinin əyani göstəricisidir.

Hazırda da əhalinin məşğulluğunun təmin olunması yönündə işlər daha da dinamik xarakter alıb. Belə ki, ötən il oktabrın 30-da Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın təsdiq olunması haqqında Sərəncamın imzalanması bu baxımdan mühüm addımdır. Onu da qeyd edim ki, İşsizlikdən Sığorta Fondunun 2019-cu il üçün nəzərdə tutulan 83 milyon 450 min manat məbləğindəki büdcəsinin 42 milyon manatı məhz özünüməşğulluq tədbirlərinə həsr olunub. Bu fakt isə özlüyündə özünüməşğulluq tədbirləri vətəndaşlarımızın passiv sosial dəstək mexanizmindən aktiv sosial dəstək mexanizminə keçirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

***-Hadi müəllim, ölkəmizdə uşaqların sosial müdafiəsinin gücləndirilməsi yönündə görülən işlər haqqında da fikirlərinizi bilmək istrdik...***

-Bu günlərdə Azərbaycanın 10 milyonuncu sakini dünyaya gəldi. Beləliklə, ölkəmizin əhalinin sayı 10 milyon nəfərə çatdı və bu hadisə respublikamızın hər yerində bayram əhval-ruhiyyəsi ilə qeyd olunur.

Ümumiyyətlə, Azərbaycanda uşaqlar dövlət qayğısı ilə tam təmin olunublar. Prezident İlham Əliyevin uğurlu sosial siyasəti nəticəsində ölkəmizdə daim güclənən sosial təminat sisteminin əhatə etdiyi əhali qruplarından biri də uşaqlardır. Ölkəmizdə bir sıra sosial müavinət növü var ki, məhz uşaqların sosial müdafiəsinə yönəlib.

Hazırda sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar, şəhid ailələrinin və müharibə əlillərinin, beşdən çox uşağı olan qadınların, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları, valideyn himayəsindən məhrum olmuş uşaqlar aylıq sosial müavinətlə təmin edilirlər. Həmçinin aztəminatlı ailələrin 1 yaşadək uşaqlarına aylıq sosial müavinət, yeni doğulan uşaqlara görə isə birdəfəlik müavinət ödənilir. Ailə başçısını itirmiş ailələrə də aylıq sosial müavinət və ya əmək pensiyası ödənilir ki, həmin ailələrin üzvlərinin böyük əksəriyyətini, habelə ünvanlı sosial yardım alan ailələrin üzvlərinin 50 faizdən çoxunu uşaqlar təşkil edir.

Dövlət başçısının 25 fevral 2019-cu il tarixli Sərəncamı bu istiqamətdə növbəti və əhəmiyyətli addımın atılmasına imkan verib. Belə ki, Sərəncama əsasən, aprelin 1-dən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar üçün müavinətin məbləği 82 manatdan 150 manata çatdırılmaqla, həmin uşaqlara qulluq edənlər üçün də Prezidentin aylıq təqaüdü təsis edilib. Eyni zamanda, sərəncamla beşdən çox uşağı olan qadınların hər uşağına görə müavinət 33 manatdan 55 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün hər uşağa görə müavinət 68 manatdan 100 manata, uşaqların qəyyumları üçün müavinət 61 manatdan 100 manata, ailə başçısını itirməyə görə müavinət hər ailə üzvü üçün 68 manatdan 80 manata, yeni doğulan uşaqlara görə birdəfəlik müavinət 109 manatdan 200 manata çatdırılıb. Bütün bunlar dövlətimizin uğurlu sosial siyasətinin ifadəsidir.

## Yeni təsis edilmiş Prezidentin aylıq təqaüdü aprelin sonunda veriləcək



Bildiyiniz kimi əmək pensiyası alan birinci qrup əlilliyi olan şəxslər, habelə onlara, sağlamlıq imkanları məhdud uşaqlara qulluq edənlər və müharibə veteranları, o cümlədən əmək pensiyası alanlar üçün aprelin 1-dən Prezidentin aylıq təqaüdü təsis edilib. Aprel ayı üzrə pensiyaların ödənişinə başlanılsa da, əmək pensiyası alan birinci qrup əlilliyi olan şəxslərə və müharibə veteranlarına pensiyalarla birgə yeni təsis olunmuş təqaüdlərin hələ ki, verilməməsi ilə bağlı narahatlığa əsas yoxdur.

Qeyd olunan təqaüdlər yeni təsis olunduqları üçün bu istiqamətdə texniki prosedurların həyata keçirilməsi üçün müəyyən vaxt tələb olunur.

Bu barədə AZƏRTAC-a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıblı məlumat verib. "Ona görə də vətəndaşların diqqətinə çatdırırıq ki, onlar həmin yeni təsis olunmuş təqaüdlərini elə aprel ayından alacaqlar. Yəni əmək pensiyası alan birinci qrup əlilliyi olan şəxslər, habelə onlara, sağlamlıq imkanları məhdud uşaqlara qulluq edənlər və müharibə veteranları, o cümlədən əmək pensiyası alanlar üçün yeni təsis olunmuş aylıq təqaüdlərin elə aprel ayından hesablanmaqla bu ayın sonunda verilməsi təmin olunacaq", - deyə F.Talıblı qeyd edib.

## Mənəvi Dəyərlərin Təbliği Fondunun nümayəndələri Gəncədə yerləşən uşaq evini ziyarət edib



Mənəvi Dəyərlərin Təbliği Fondunun nümayəndələri "Bir uşaq - bir ümid" layihəsi çərçivəsində Gəncədə yerləşən Uşaq Evini ziyarət ediblər. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirdə Fondun nümayəndə heyəti ilə yanaşı, Gəncə Şəhər İcra Hakimiyyətinin əməkdaşları və Uşaq Evinin rəhbərliyi də iştirak edib. Fondun icraçı direktoru Mehman İsmayılov uşaqları salamlayaraq bildirib ki, onlar cəmiyyətimizin gələcəyi, xalqımızın, dövlətimizin ən qiymətli sərvətidir. Bu gün uşaqların fiziki cəhətdən sağlam, vətənpərvər ruhda böyüməleri, mükəmməl elmi biliklərə yiyələnmələri üçün dövlətimiz tərəfindən hər cür şərait yaradılıb. Prezidenti İlham Əliyevin Sərəncamı ilə yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondunun nümayəndələri də uşaq evlərini ziyarət etməyi özlərinin ən ümdə vəzifələrindən biri hesab edir.

Uşaq evinin sakinləri musiqili-əyləncəli proqramla çıxış edib, öz istedadlarını göstəriblər. Maraqlı və şən musiqilərlə zəngin olan kompozisiya tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb. Daha sonra balacalara hədiyyələr təqdim olunub. Sonda Gəncə Uşaq Evinin rəhbərliyi və balaca sakinləri Mənəvi Dəyərlərin Təbliği Fondunun nümayəndələrinə təşəkkürlərini bildiriblər. Məlumat üçün bildirək ki, Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə həyata keçirilən "Bir uşaq - bir ümid" layihəsi çərçivəsində ölkədə yerləşən uşaq evlərinin ziyarət edilməsi nəzərdə tutulur.

## AŞPA-da erməni deputat mövzudan kənar çıxış etdiyinə görə mikrofonu söndürülüb

AŞPA-nın yaz sessiyası çərçivəsində Assambleyanın qaydalarında müəyyən müddəaların dəyişdirilməsinə dair müzakirələr zamanı erməni deputat Mikayel Melkumyan yenidən təxribata əl atıb. AZƏRTAC xəbər verir ki, o, Azərbaycan deputatlarını Dağlıq Qarabağla bağlı yalanlar söyləməkdə ittiham etməyə başlayıb. Ancaq AŞPA-nın prezidenti Lilyan Paskye onu dayandıraraq mövzudan kənara çıxmamağa çağırıb. Erməni nümayəndə qurumun rəhbərinin iradına qulaq asmayıb davam edəndə onun mikrofonu söndürülüb. AŞPA-nın prezidenti mikrofonsuz qışqıraraq danışan erməni deputatı qışqırmamağa, sakitləşməyə çağırıb. Bildirib ki, qışqırmaq lazım deyil, onun söylədiklərinin müzakirə olunan mövzuya heç bir aidiyyəti yoxdur. Lilyan Paskye erməni deputatı qurumun qaydalarına riayət etməyə çağırıb.

# Uğurları şərtləndirən amil: İlham Əliyev - Xalq birliyi

## *Bu mövzuda "Səs" qəzetinin redaksiyasında dəyirmi masa keçirilib*

**(Əvvəli ötən sayımızda)**

Dünən "Səs" qəzetinin redaksiyasında "Uğurları şərtləndirən amil: İlham Əliyev - Xalq birliyi" mövzusunda dəyirmi masa keçirildi. Dəyirmi masa 2018-ci ildə ölkəmizdə keçirilən prezident seçkilərindən ötən bir il ərzində Cənab İlham Əliyevin rəhbərliyi ilə iqtisadi, siyasi, hərbi və digər sahələrdə əldə olunan uğurlara həsr olunmuşdu.

Dəyirmi masada "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müşaviri Mustafa Abbasbəyli, Gənclər və İdman Nazirliyinin gənclərlə iş şöbəsinin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi sektorunun müdiri Əli Məmmədov, iqtisadçı-ekspert Vüqar Bayramov iştirak edirdilər.

Dəyirmi masanı giriş sözü ilə "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev açaraq, ölkəmizdə 11 aprel 2018-ci il tarixdə keçirilən prezident seçkilərindən artıq bir il ötdüyünü bildirərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin seçkilərdə növbəti dəfə xalqın böyük əksəriyyətinin səsini qazanaraq parlaq qələbəyə nail olmasını ölkə əhalisinin rifah halının yaxşılaşdırılmasına xidmət edən uğurlu addımların atılması ilə xarakterik yeni uğurlu islahatlar mərhələsinə keçidə təminat vermiş olduğunu diqqətə çatdırdı: "2018-ci ilin prezident seçkilərindən ötən bir ildə uğurlu sosial islahatlar və vətəndaş rifahına xidmət edən addımlar atılıb. Təkcə bu ilin ötən dövründə Prezident İlham Əliyevin uğurlu sosial islahatlar paketi vətəndaşların rifahına ciddi dəstək olan inqilabi addımların atılmasına imkan verib. Bildiyiniz kimi, Fransanın nüfuzlu "Opinion Way" sorğu mərkəzi fevral və mart aylarında Azərbaycanda mövcud ictimai-siyasi vəziyyət, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi islahatlar, hökumətin ümumi, daxili və xarici siyasətinə ölkə əhalisinin münasibətini öyrənmək məqsədilə geniş rəy sorğusu keçirib. "Opinion Way" kimi müstəqil bir şirkət tərəfindən həyata keçirilən sorğuda respondentlərə təqdim olunan bütün suallara verilən cavablarda dövlət başçısına göstərilən yüksək etimad, bir daha sübut edir ki, Azərbaycan vətəndaşı ölkə rəhbərinin həyata keçirdiyi siyasəti dəstəkləyir. Bildiyiniz kimi, bu gün Azərbaycan həm sosial, həm siyasi, həm də iqtisadi sahədə dünyaya inkişafın yeni modelini nümayiş etdirir. Son 1 ildə Azərbaycan Prezidenti bütün bunlarla yanaşı, liderin vətəndaşlara olan münasibətinin də yeni modelini ortaya qoymuş oldu. Belə ki, dövlət başçısının müxtəlif görüşlərdə, tədbirlər çərçivəsində, baş verən hadisələr zamanı vətəndaşların yanında olması, onların problemlərinin həllinə operativ şəkildə reaksiya verməsi, problemləri onların öz dillərindən öyrənməsi, artıq bütün dünya üçün yeni model və təcrübədir. İstərdim ki, bugünkü dəyirmi masada dövlət başçısının son bir ildə həyata keçidiyi genişmiqyası işlərə, eləcə də, şirkətin apardığı sorğunun nəticələrinə diqqət yetirilsin."

### CƏNAB İLHAM ƏLİYEVİN SEÇKİLƏRDƏN SONRAKI ÖTƏN BİR İLDƏ REALLAŞDIRDIĞI UĞURLU SOSİAL İSLAHATLAR VƏTƏNDAŞ RİFAHINDA CİDDİ MÜSBƏT DƏYİŞİKLİKLƏRƏ ƏSAS YARADIB



MUSTAFA ABBASBƏYLİ:
- Prezident İlham Əliyevin sosial islahatlar paketinin daha bir uğurlu nəticəsi 8 fevral 2019-cu il tarixli Sərəncamla ölkədə minimum əmək haqqının 2019-cu il martın 1-dən orta hesabla 40 faiz artırılaraq, 180 manata çatdırılması oldu. 600 min, o cümlədən, dövlət sektoru üzrə 450 min, özəl sektor üzrə 150 min işçinin rifahına ciddi dəstək olan bu artım üçün illik 400 milyon manat əlavə vəsait ayrılacaq. Minimum əmək haqqının yaşayış minimumuna çatdırılmasına imkan verən bu artım, eyni zamanda, qeyri-rəsmi əmək münasibətlərinin də leqallaşdırılmasına müsbət təsirini göstərir.

19 fevral 2019-cu il tarixli Fərman isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafeyinin təmin olunmasına xidmət etməklə, Azərbaycanın sosialyönümlü dövlət siyasətinin əsasında humanizm prinsipləri dayandığının növbəti təsdiqi oldu. Beləliklə, ötən dövr ərzində Prezident İlham Əliyevin sosial islahatlar paketi 3 milyon vətəndaşın rifahında əhəmiyyətli rol oynayan mühüm addımların atılmasına imkan verdi.

Bütün qeyd edilən bu və ya digər amillər Azərbaycanda 2018-ci ilin 11 aprel tarixində keçirilən prezident seçkilərində inamlı qələbə qazanan Prezident İlham Əliyevin seçkilərdən sonrakı ötən bir ildə reallaşdırdığı uğurlu sosial islahatlar paketinin nailiyyətləri olmaqla, ölkədə sosial inkişaf proseslərinin son bir ildə daha da güclənərək, vətəndaş rifahında ciddi müsbət dəyişikliklərə əsas yaratdığını göstərir.

BƏHRUZ QULİYEV:
- Dövlətin həyata keçirdiyi hərtərəfli siyasətin ən vacib komponentlərindən birini də dövlət-gənclər siyasəti təşkil edir. Gənclər siyasəti əsasən, gənclərin intellektual səviyyəsinin artırılmasını, gənclərimizin elmə, təhsilə yiyələnmələrinə nail olunmasını, onların azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin mənimsənilməsini və digər məsələləri özündə ehtiva edir. Dövlət başçısı hər zaman gəncləri maraqlandıran, onları narahat edən problemlərlə maraqlanır, görüşlər keçirir və bu istiqamətdə öz tövsiyə və tapşırıqlarını verir. Prezident İlham Əliyevin gənclərə olan diqqət və qayğısının bir nümunəsi elə bu ilin fevralında Gənclər Günü ilə bağlı onlarla keçirdiyi görüşü oldu. Bu görüş gənclərə bir stimul verdi. İstərdim ki, Əli müəllim, bu gün ölkəmizdə həyata keçirilən dövlət-gənclər siyasətini xarakterizə edəsiniz.

### DÖVLƏT BAŞÇISI AZƏRBAYCAN GƏNCLƏRİNDƏ ZAMANIN TƏLƏBLƏRİNƏ CAVAB VERMƏK ÜÇÜN İKİ VACIB KOMPONENTİN - TƏHSİL VƏ MİLLİ VƏTƏNPƏRVƏRLİK RUHUNUN OLMASINI TEZIS ŞƏKLİNDƏ İRƏLİ SÜRDÜ

ƏLİ MƏMMƏDOV:
- Azərbaycan Prezidenti İlham Əliyevin ötən bir il ərizində həyata keçirdiyi gənclər siyasətinə nəzər salarkən, təbii ki, ötən 15 il ərzində görülən işlərə diqqət yetirilməlidir. Çünki gənclər siyasəti ən vacib strateji siyasətlərdən biridir. Bu gün ölkəmizdə gənclər siyasətini həyata keçirmək üçün hüquqi baza mövcuddur. Dövlət başçısının gənclərlə bağlı sərəncamları, həyata keçirilən dövlət proqramları onların hərtərəfli inkişafına yönəlib. Gənclərin hərtərəfli inkişafı, təşkilatlanması, dövlət idarəetməsində və seçkili orqanlarda təmsilçiliyi, gənclərin sosial problemlərinin həllində misilsiz işlər həyata keçirilib. Eləcə də, Prezidentin Sərəncamı ilə təsdiq edilmiş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" Azərbaycan dövlət-gənclər siyasətinin gələcək təminatının daha bir təzahürüdür. Bu fundamental strategiya Azərbaycan gəncliyinə olan böyük etimadın və onlardan olan gözləntinin əyani göstəricisidir.

Prezident İlham Əliyevin bu il Azərbaycan Gəncləri Günü münasibətilə ölkəmizin gəncləri ilə görüşdə səsləndirdiyi fikirlər, bir daha dövlətin gənclərimizə olan münasibətini əks etdirdi. Dövlət başçısı Azərbaycan gənclərində zamanın müasir tələblərinə cavab vermək üçün iki vacib komponentin olmasını tezis şəklində irəli sürdü, bunlardan biri təhsil, digər isə milli vətənpərvərlik ruhudur. Birinci Azərbaycan gəncini dünya gənci ilə rəqabətdə güclü edəcək, ikincisi isə, onu bir azərbaycanlı kimi qlobal proseslərdə assimilyasiyadan qoruyacaq.

15 illik tarixi mərhələli proses nəticəsində gənclərimiz mədəniyyət, incəsənət, idman, elm, təhsil, texnologiya və başqa sahələrdə öz istedadlarını və qazandıqları uğurları layiqincə nümayiş etdirirlər. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclərin məşğulluğunun təmin edilməsinə və sosial məsələlərinin həllinə, gənclərin sahibkarlıq təşəbbüslərinin dəstəklənməsinə daim diqqət və qayğı göstərilir.

Bu gün gənclərin hərtərəfli inkişafından söhbət gedirsə, ilk növbədə, milli ideologiyanın təbliği məsələsinə diqqət yetirilir. Azərbaycançılıq ideologiyasının təbliği yerlərdə həyata keçirilir. Keçirilən tədbirlər, dəyirmi masalar və görüşlərdə onlara vətənpərvərlik ruhu aşılanır, azərbaycançılıq ideologiyası və dövlətimizin həyata keçirdiyi hərtərəfli siyasət aşılanır.

Müasir dünyamızda, ilk növbədə, gənclərdə vətənə sevgi böyük olmalıdır. Milli ruh yüksək olmalıdır. İntellektual və təhsilli yetişən gənclərimiz gələcəkdə Azərbaycanı müxtəlif sahələr üzrə təmsil edəcəklər.

Ardı Səh. 11

# Uğurları şərtləndirən amil: İlham Əliyev - Xalq birliyi

*Bu mövzuda "Səs" qəzetinin redaksiyasında dəyirmi masa keçirilib*

Əvvəli Səh. 10

BƏHRUZ QULİYEV:

- Ölkəmiz, ötən bir il ərzində, dövlət başçısının rəhbərliyi ilə, bütün sahələrdə olduğu kimi, xarici siyasətdə də böyük uğurlara nail olunub. Hikmət müəllim, "Opinion Way"ın keçirdiyi sorğuda, bildiyimiz kimi, Prezident İlham Əliyevin xarici siyasəti ilə bağlı nəticələr də yüksəkdir. Sorğuda iştirak edənlərin 89,9 faizi xarici siyasətlə bağlı olan sualı müsbət cavablandırıb. "Opinion Way"ın sorğusuna respondentlərin verdiyi cavablar Azərbaycan cəmiyyətinin Prezident İlham Əliyevə böyük etimad bəslədiyini bir daha təsdiq edir.

### XALQ-İQTİDAR BİRLİYİNİ TƏMİN EDƏN ƏSAS MƏSƏLƏ AZƏRBAYCANDA HƏYATA KEÇİRİLƏN SİYASƏTİN MƏRKƏZİNDƏ VƏTƏNDAŞLARIMIZIN MƏNAFEYİNİN DAYANMASIDIR

HİKMƏT BABAOĞLU:

- Əgər son 1 il müddətində Azərbaycanın xarici siyasətini qiymətləndirməyə çalışsaq, görərik ki, ölkəmiz bu müddətdə çox mürəkkəb mərhələdən keçib. Bir il müddətində, bütövlükdə, regionda, o cümlədən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində yeni mərhələ yaranmışdı. Bu mərhələdə tərəflərin öz mövqelərini dəqiqləşdirilmələri kimi yeni sürpriz ortaya çıxdı. 2018-ci ildə Ermənistanda yeni baş nazir sistemi yarandıqdan sonra yeni hakimiyyət Ermənistanı işğal məsuliyyətindən kənarda saxlamaq üçün müxtəlif siyasi manipulyasiyalar ortaya atmağa başladı. Çılpaq bir həqiqət ondan ibarətdir ki, danışıqlar prosesində biz, əslində, ATƏT-in Minsk Qrupu həmsədrlərinin mövqeyindən daim narazıyıq və bu narazılıq ən yüksək səviyyədə dilə gətirildi. Çox təəssüf ki, biz bəzi hallarda bu siyasi kaprizlərə ATƏT-in Minsk Qrupu həmsədrlərinin loyal münasibətini də gördük. Burada Azərbaycan Prezidenti sərt hücum diplomatiyası həyata keçirdi. İlk növbədə, problemi həll etməli olan, bunun üçün BMT Təhlükəsizlik Şurasından mandat almış ATƏT-in Minsk Qrupunun həmsədrləri formatının dəyişməzliyi ilə bağlı bəyanat verdilər. Bu, çox mühüm məsələ idi. Amma bundan əvvəl biz Avropa İttifaqının da bu istiqamətdə mövqeyinin şahidi olduq. Onlar qeyd etdilər ki, format dəyişilə bilməz, problem sülh yolu ilə və mövcud formatda aparılmalıdır. Regionumuzun və dünyanın ən böyük hərbi-siyasi təşkilatı olan NATO-nun rəhbərliyi də bununla bağlı eyni fikri təkrar etdi. Bundan sonra Ermənistanın baş naziri Nikol Paşinyan öz manipulyasiyasına son qoymaq məcburiyyətində qaldı. Şübhəsiz ki, bu diplomatik səylər Azərbaycanın xarici siyasətinin uğuru kimi qiymətləndirilir.

Ümumiyyətlə, xarici siyasət dedikdə, hər şeydən öncə, Azərbaycan vətəndaşının və seçicisinin ağlına gələn ilk fikir ərazi bütövlüyümüzün bərpa edilməsidir. Bunun üçün xarici siyasət bir alətdir. Amma bu, hamısı deyil. İlk növbədə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün mükəlləf olan Azərbaycan Ordusudur ki, bu ordu qurucuğunda da mühüm işlər həyata keçirilib. İkinci komponent isə xarici siyasətdir. Ancaq bunların hamısının güc aldığı mənbə xalq-iqtidar birliyi və iqtisadi inkişafdır. İqtisadi inkişaf olmasa, bu sahədə islahatlar aparılmaz, iqtisadi islahatlar aparılmadan əhalinin sosial problemləri həll oluna bilməz. Bu problemlər həll olunmasa isə, xalq-iqtidar birliyindən danışmaq olmaz. Bu baxımdan, xalq-iqtidar birliyini təmin edən əsas məsələ Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində vətəndaşlarımızın mənafeyinin dayanmasıdır ki, bunu Cənab Prezident dəfələrlə qiymətləndirib.

### SON BİR İLDƏ REALLAŞAN LAYİHƏLƏR, MƏHZ REGİONDA TƏHLÜKƏSİZLİYİN VƏ SÜLHÜN TƏMƏL DAŞININ DAHA DA MÖHKƏMLƏNMƏSİNDƏ ƏHƏMİYYƏTLİ ROL OYNAYIR

VÜQAR BAYRAMOV:

- 11 aprel prezident seçkilərindən sonrakı növbəti ayda Səngəçal terminalında "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı, eləcə də, bu dəhliz vasitəsi ilə mavi qazın Türkiyə bazarına ötürülməsi ötən ilin, iqtisadi baxımdan, ən yaddaqalan hadisələrindən biri oldu. Bütövlükdə "Cənub Qaz Dəhlizi" vasitəsi ilə Azərbaycan Avropa və Türkiyəyə ötürüləcək mavi qazın həcmi 31 milyard kubmetr olacaq. Azərbaycan bu dəhliz vasitəsi ilə Türkiyəyə, əlavə olaraq, 7 milyard kubmetrə yaxın mavi qaz, Avropaya birinci mərhələdə 10 milyard, ikinci mərhələdə isə 20 milyard kubmetrdən artıq mavi qaz nəql edəcək.

Bakı-Tbilisi-Qars dəmir yoluna gəlincə, bildirim ki, bu, kifayət qədər əhəmiyyətli bir layihə idi. Onun reallaşmasında da xeyli çətinliklər var idi. Sözügedən dəmir yolu xətti Azərbaycanın qeyri-neft məhsullarının Türkiyə və digər ölkələrin bazarlarına çıxmasına imkan yaradıb.

Onu da bildirim ki, eyni zamanda, qeyri-neft sektorunda da bir sıra layihələr reallaşıb. Belə ki, sənaye parklarının açılması, xüsusən, regionlar üçün əhəmiyyətli olan layihələrin icrası kimi xarakterizə olunur.

Son bir ərzində reallaşan layihələrə diqqət yetirsək, görərik ki, bu layihələr təkcə region üçün deyil. "Cənub Qaz Dəhlizi" Avropa üçün yeni alternativ mənbədir. Bakı-Tbilisi-Qars dəmir yolunun reallaşması Şərq-Qərb Nəqliyyat Dəhlizinini reallaşmasına töhfə verəcək və artıq verir. Bu kontekstdə son bir ildə reallaşan layihələr, məhz regionda təhlükəsizliyin və sülhün təməl daşının möhkəmlənməsində əhəmiyyətli rol oynayır. Bütün bunlar, xüsusi olaraq qeyd edilməlidir ki, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi nəticəsində mümkün olub.

**Nəzakət ƏLƏDDİNQIZI**

# "Xalqa və dövlətçiliyə xidmət"

*YAP Pirallahı rayon təşkilatında bu mövzuda tədbir keçirilib*

***Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının təşkilatçılığı ilə rayonun Gənclər Evində "Xalqa və dövlətçiliyə xidmət" mövzusunda tədbir keçirilib.***

Dövlət Himninin səslənməsindən sonra millət vəkillərinin, Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının şura üzvləri, ərazi ilk partiya təşkilatları sədrləri, rayonun Ağsaqqallar Şurasının üzvləri, Qarabağ müharibəsi veteranları və Çernobıl əlillərinin iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov qeyd etdi ki, ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində, Azərbaycan 2018-ci ildə iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə etmiş, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmlənmişdir. H.Şikarov əlavə edib ki, ötən ilin ən mühüm-əlamətdar hadisəsi isə, prezident seçkilərinin keçirilməsi və Cənab İlham Əliyevin növbəti dəfə möhtəşəm qələbə qazanması oldu: "Azərbaycan xalqı yenidən Cənab İlham Əliyevə yüksək etimad göstərdi və bir daha sabitliyə, inkişafa və tərəqqiyə səs vermiş oldu. Dünyaya nümunəvi və mütərəqqi inkişaf modeli təqdim edən Azərbaycan bu gün, sözün əsl mənasında, özünün qızıl əsrini yaşamaqdadır və bu dövr hələ uzun müddət davam edəcək. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasi kurs, bir daha sübut etdi ki, ölkəmizdə islahatlar davamlı xarakter daşıyır".






Milli Məclisin İnsan Hüquqları Komitəsinin və Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin üzvü Elman Nəsirov çıxışında ölkə başçısı Cənab İlham Əliyevin 2019-cu ilin ilk üç ayı ərzində, sosial yönümlü sərəncamlarından əhalinin hər yaş qrupunun faydalandığını qeyd etdi. Azərbaycanda qazlaşmanın 95 %-ə çatmasının, bölgələrin, hətta ucqar dağ kəndlərinin fasiləsiz elektrik enerjisi ilə təmin olunmasını, bütün ölkə boyu yol infrastrukturunun dünya standartları səviyyəsinə çatdırılmasını vurğulayaraq, bu inkişafın arxasında ölkə başçısı İlham Əliyevin yürütdüyü uğurlu siyasətin dayandığının qeyd edib.

Azərbaycan Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin baş direktorunun müavini, Milli Məclisin Səhiyyə Komitəsinin üzvü Kəmaləddin Qafarov çıxış edərək, son dövrlərdə Cənab İlham Əliyevin Sərəncamına əsasən, səhiyyə işçilərinin maaşlarının artırılmasından, Azərbaycan səhiyyə sisteminin inkişafı üçün dövlət proqramlarının həyata keçirilməsindən danışdı. Qalibiyyətli aprel döyüşlərində əsgərlərimizin döyüş ruhunu xüsusi qeyd edən millət vəkili Milli Ordumuzun, qısa zaman ərzində, torpaqlarımızı işğaldan azad etmək iqtidarında olduğunu vurğulayıb.

Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədr müavini Rauf Əliyev çıxış edərək bildirdi ki, hər bir dövlətin gücü onun iqtisadi və hərbi gücü ilə ölçülür: "İqtisadi cəhətdən bütün sahələrdə inkişaf edən Azərbaycanda ordumuzun döyüş qabiliyyəti artır və güclənir. Bu gün bizim ordumuz istənilən vəzifəni icra edə bilər. Ölkə Prezidentinin sosaial yönümlü islahatları nəticəsində, əsasən, neft rayonu olan Pirallahı rayonunda qeyri-neft sektoru sürətlə inkişaf edir. Sənaye Parkının ərazisində şaquli planlaşdırma işləri yekunlaşdırılmışdır. Mərkəzi yol kənarı boyu hasarın çəkilməsi işləri tamamlanmış, kommunikasiya xətlərinin köçürülməsi işləri aparılmışdır".

Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı gənclər birliyinin sədri Rüfət Əhmədov ölkəmizdə gənclər siyasətindən, gənclərə göstərilən diqqət və qayğıdan danışaraq, ölkə gənclərinin bundan sonra da Prezident İlham Əliyevin ətrafında sıx birləşəcəklərini bildirib.

Tədbir partiyanın ictimai-siyasi həyatında fəallıq göstərdiklərinə görə bir qrup YAP Pirallahı rayon təşkilatı fəallarının Fəxri Fərmanlarla təltif olunması və partiya sıralarına yeni qəbul edilmiş şəxslərə üzvlük vəsiqələrinin təqdim olunması ilə yekunlaşıb.

**Rövşən NURƏDDİNOĞLU**

# "Böyük zəfərlərin carçısı-İlham Əliyev!"






***Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatında Cənab İlham Əliyevin 2018-ci ildə növbəti dəfə Prezident seçilməsinin bir illik fəaliyyətinə həsr olunmuş "Böyük zəfərlərin carçısı - İlham Əliyev!" adlı tədbir keçirilib.***

Tədbirdən öncə, iştirakçılar partiyanın inzibati binasının foyesindəki Ulu Öndər Heydər Əliyevin büstünü ziyarət edərək, önünə tər çiçək dəstələri düzüblər. Tədbirdə, ilk olaraq, Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov bildirib ki, ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayan 11 aprel 2018-ci il prezident seçkilərindən bir il ötür: "Bir il, zaman baxımından az olsa da, bütün sahələrdə əldə olunan uğurların statistikasına diqqət yetirdikdə, bugünə qədərki uğurlu dövrün davamlılığı böyük qürur hissi yaradır.

V.Seyidov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasi kurs, bir daha sübut etdi ki, ölkəmizdə islahatlar davamlı xarakter daşıyır.

Tədbirdə çıxış edən "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu bildirib ki, 2018-ci ildə ölkəmizdə keçirilən prezident seçkilərində seçicilərin mütləq səs çoxluğu ilə qələbə qazanan Cənab İlham Əliyevin bir illik fəaliyyətini ölkə vətəndaşları yüksək qiymətləndirirlər: "Prezident İlham Əliyevin fəaliyyətini Fransanın nüfuzlu "Opinion Way" şirkətinin sorğusunda görürük. "Opinion Way" 8 blok üzrə suallar müəyyənləşdirib. Birinci dörd blokda qiymətləndirmədə müsbət rəy 90 faizə yaxındır. Digər 4 blokda isə 80 faiz ətrafındadır. Respondentlərin fikrinə görə, dünyada və bölgədə yaşanan çoxsaylı mənfi proseslərdən asılı olmayaraq, Azərbaycan son bir ildə ictimai-siyasi sabitlik şəraitində öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb. Mən düşünürəm ki, bu bir il bundan əvvəlki seçicinin və bugünkü respondentin Azərbaycandakı ictimai-siyasi prosesə şüurlu yanaşmasının göstəricisidir. Təbii ki, ictimai-siyasi sabitlik olmadan nə sosial, nə də iqtisadi problemləri həll etmək mümkün deyil".

YAP İdarə Heyətinin üzvü Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov son illərdə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlara nəzər salaraq, əldə olunan uğurlardan danışdı. Qeyd etdi ki, Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır: "Azərbaycan iqtisadiyyatında ardıcıl müşahidə olunan inkişaf meylləri, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verir".

Tədbirdə Suraxanı rayon sakini, şəhid anası Saray Quliyeva fəal gənclərdən olan Arzu Məmmədli və digərləri çıxış edərək, hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılı olduğunu bildirdilər.

Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov çıxış edərək, qeyd etdi ki, Azərbaycanda son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində, bütün sahələrdə tarixi əhəmiyyətə malik olan möhtəşəm nailiyyətlər əldə olunub: "Dövlət başçısının siyasi iradəsi əsasında müəyyənləşdirilən strateji kursa uyğun olaraq, ölkəmizdə cari ilin əvvəlindən sosial sahədə çox ciddi addımlar atılıb. Həqiqətən də, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə və əhəmiyyətinə görə, heç bir ölkədə müşahidə olunmur. Bu, ilk növbədə, ölkə başçısının, Azərbaycan dövlətinin öz vətəndaşına olan diqqət və qayğısının təzahürüdür".

Sonda tədbir iştirakçıları tərəfindən Prezident İlham Əliyevə müraciət ünvanlanıb.

Tədbir bədii hissə ilə başa çatıb.

**ZÜMRÜD**





# Xalqın bir il öncəki seçimi Azərbaycanın parlaq gələcəyini təmin etdi

***Dünən Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının və Nizami rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə dövlətimizin başçısı İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsinin bir ilinin tamam olması münasibətilə tədbir keçirilib. Tədbirin əvvəlində, son bir il ərzində Prezident İlham Əliyevin fəaliyyətini əks etdirən video-çarx nümayiş etdirilib.***

Tədbirdə çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, ötən bir il Azərbaycan xalqının öz seçimində yanılmadığını, vətəndaşlarımızın siyasi şüurunun və seçmək qabiliyyətinin nə qədər yüksək olduğunu bir daha sübut etdi: "Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi daxili və xarici siyasət xəttini, şəraitin tələblərinə uyğun olaraq, yeniləşdirməklə davam etdirən Prezident İlham Əliyev ölkə həyatının bütün sahələrini əhatə edən bu dinamik inkişafa, hər bir Azərbaycan ailəsinin rifahının yaxşılaşmasına və təhlükəsizliyinin təmin edilməsinə, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsinə, ölkəmizin maraqlarına cavab verən tarazlaşdırılmış xarici siyasətin yürüdülməsinə nail olub. Xalqımız ötən müddətdə əldə olunan uğurlara 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə ən yüksək qiymətini verdi. Seçkilərin nəticələrinə əsasən, İlham Əliyev səslərin 86,02 faizini toplayaraq, növbəti müddətə Azərbaycan Respublikasının Prezidenti seçildi".

Tədbirdə çıxış edən Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov bildirib ki, Azərbaycanın hər bir vətəndaşının və dövlətimizin maraqları son bir ildə də Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində olub: "Bu müddətdə ölkəmizdə hərtərəfli dinamik inkişaf, sabitlik və əmin-amanlıq təmin edilib, beynəlxalq mövqelərimiz daha da möhkəmləndirilib. Dövlətimizin başçısının seçkilər ərəfəsində yeni iqtisadi modelə keçidlə, iqtisadi və sosial sahədə islahatların aparılacağı ilə bağlı vədləri, ardıcıl olaraq, yerinə yetirilir. Hər zaman fəaliyyətində xalqın dəstəyinə arxalanan Prezident İlham Əliyev daim xalq ilə təmasda olur, vətəndaşları narahat edən problemləri birbaşa onların dilindən dinləyir və bu məsələlərin həlli ilə bağlı müvafiq göstərişlər verir".

"Səs" Media Qrupunun rəhbəri tədbirdə çıxışında Bəhruz Quliyev qeyd edib ki, seçkilərdə qələbə qazandıqdan sonra Prezident İlham Əliyevin imzaladığı ilk Fərman şəhid vərəsələrinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı oldu: "Dövlətimizin başçısının ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərən qərarları ilə, ötən bir il ərzində, minimum pensiya məbləği, minimum əməkhaqqı orta hesabla 40 faiz artırıldı. Dövlətimizin başçısının 2019-cu il 25 fevral tarixli Sərəncamı ilə isə 600 minədək şəxsə, o cümlədən 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlər və təqaüdlər orta hesabla 100 faiz artırıldı, əlavə olaraq, bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu. Bu ilin fevral ayının sonlarında imzalanan Sərəncamla məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinət 50 faiz artırıldı ki, bu da 500 mindən çox məcburi köçkünün rifah halının yüksəldilməsinə xidmət edir. Həmçinin, bu il 110 minədək tələbənin də təqaüdlərinin ciddi şəkildə artırılması təmin olundu. Azərbaycan Prezidentinin humanizm prinsiplərinə söykənən sosialyönümlü siyasətini, daim hər bir vətəndaşının yanında olduğunu təsdiqləyən digər bir addım isə, 800 mindən çox insanın problemli kredit məsələsini aradan qaldıracaq Fərman oldu. Dövlətimizin başçısı tərəfindən imzalanan daha bir Fərmanla isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafeyi təmin olundu. Son bir ildə sosial sahədə atılan bu mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiqləyir".

Tədbirdə çıxış edən Nizami rayon icra hakimiyyətinin başçısı Arif Qasımov isə vurğulayıb ki, son bir ildə Prezident İlham Əliyev tərəfindən görülən işlər, ölkəmizin davamlı inkişafı, vətəndaşların rifah halının yüksəldilməsi istiqamətində atılan addımlar göstərdi ki, aprelin 11-də keçirilən seçkilərdə xalqın seçimi Azərbaycanın parlaq gələcəyini təmin etdi.

Digər çıxış edənlər Prezident İlham Əliyevin cari Prezidentlik dövrünün ilk ili ərzində Azərbaycanın öz dinamik inkişafını təmin etdiyini və xalqımızın əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşadığını bildiriblər. Dövlətimizin hərtərəfli inkişafı və xalqın sosial rifahının daha da gücləndirilməsi istiqamətində görülən işləri məqsədyönlü dövlət siyasətinin mühüm tərkib hissəsi hesab edən natiqlər son bir ildə ölkəmizdə ciddi institusional islahatların aparıldığını qeyd ediblər.

**RƏFİQƏ HÜSEYNOVA**

# Ermənistanda nikolizm hakimiyyəti mövcuddur

*Qarnik Qevorqyan: "Əgər biz Nikol Paşinyan barədə bir anlıq unutsaq, hakimiyyət kağız kartlarından düzəldilmiş evcik kimi dağılar"*

***"Ermənistanın yeni hakimiyyəti, yumşaq desək, mükəmməllikdən uzaqdır. Həqiqətə qalanda, hakimiyyət həm icraçılıq, həm də qanunvericilik baxımından, daha çox səhvlər buraxır ki, nəinki əksinə. Nikol Paşinyanın kadr siyasəti obyektiv olaraq, hakimiyyətinin ən zəif nöqtəsidir. Hakimiyyət isə tənqidləri qulaqardına vurərək, eyni tərzdə siyasətini yürütməyə davam edir. İnqilab yolu ilə hakimiyyətə necə gəliblərsə, elə də qalmaqdadırlar".***

Bu fikirlər Ermənistanın "1in" saytının siyasi şərh bölməsində qeyd olunub.

### "Böhranın müəyyən elementləri artıq hökumətdə müşahidə olunmaqdadır, müxtəlif qanadlar, qruplaşmalar formalaşır ki, onların hər biri hakimiyyətə olmaqla yanaşı, həm də hakimiyyətə təsir göstərməyə cəhdlər edirlər"

Məqalənin müəllifi Qarnik Qevorqyan qeyd edir ki, əgər siyasət bu istiqamətdə davam edəcəksə, yalnız hazırkı vaxtda operativ rejim idarəçiliyi ilə idarə edilən dövlət deyil, hökumətin özü də ciddi zərərlər görəcək. SİTAT: "Böhranın müəyyən elementləri artıq hökumətdə müşahidə olunmaqdadır, müxtəlif qanadlar, qruplaşmalar formalaşır ki, onların hər biri hakimiyyətə olmaqla yanaşı, həm də hakimiyyətə təsir göstərməyə cəhdlər edirlər. Bu mövcudluq istənilən hakimiyyət üçün xarakterik olsa da, xüsusilə, Nikol Paşinyan hakimiyyətində daha çox görünür, belə ki, burada ümumi daxili və sistemli maraqlar yoxdur".



### "Bu amil on illər boyunca məmur sinfində, qarşı-qarşıya dayanan hakimiyyət qanadlarında və oliqarxlarda istifadə olunurdu"

Erməni siyasi şərhçi bildirir ki, iki onillikdən də çox müddət ərzində Ermənistanda başqa idarəçilik və məntiq var idi. "Robert Koçaryan və Serj Sarkisyan kriminal-oliqarx hakimiyyətləri, yaxud ayrı adlarda olan hakimiyyətlər, məhz dəqiq mexanizmləri sayəsində fəaliyyət göstərərək, mövcudluqlarını qoruyub-saxlayırdılar" deyə sözügedən şərhdə qeyd olunur ki, ən aşağıdan tutmuş ən yuxarı nöqtəyə qədər hakimiyyətdə korrupsiyalaşmış səmərəçilik fəaliyyət göstərirdi ki, bu da bütün dövlət idarələrini və hakimiyyəti qane edirdi: "Məhz bu maraq həmin konsensus idi ki, onun ətrafında illərlə qalmışdı. Bu amil on illər boyunca məmur sinfində, qarşı-qarşıya dayanan hakimiyyət qanadlarında, oliqarxlarda istifadə olunurdu. Sözügedən konsensus hakimiyyətlərin uzunömürlülüyünün əsasını təşkil edirdi, aşağıdan-yuxarıya doğru hər kəs bütün imkanlardan istifadə edirdi ki, hakimiyyətin və dövlətin yemindən istifadə etmək imkanına malik olsunlar. Bu, həm də ona səbəb oldu ki, istənilən fors-major vəziyyətlərdə hakimiyyət sistemi ölçüyəgəlməz birlik nümayiş etdirərək, mövcud korrupsiya maraqlarını itirməkdən ehtiyat edirdilər".

Maraqlıdır ki, erməni müəllif, hazırkı hakimiyyətdə də korrupsiyanın mövcudluğunu inkar etməyərək, qeyd edib ki, artıq müəyyən korrupsiya olayları var, ancaq hələlik, bu faktor sistemli mövcudluğa aid deyil. Lakin belə davam edərsə, bu da ardıcıllıqla hakimiyyətə sirayət edəcək.

### "Dövlət idarəçiliyi və hakimiyyət, bütövlükdə nikolizmə xidmət edir"

Qarnik Qevorqyan bütün bunlara baxmayaraq, ölkədəki yeni şüar və çağırışların boğazdan yuxarı deyildiyinə işarə edib. Onun fikrincə, ilk baxışdan, demokratik dövlətin qurulması üçün səslənən iqtisadi inqilab çağırışları və gözəl şüarlar xoş təsir bağışlayır: "Lakin bu şüarlar və mətnlər hədəf deyil, dövlətçilik sisteminin idarə olunmasında iştirak edən nümayəndələr özlərini həmin şüarlarla identefikasiya etmirlər, çünki onlarda daha yaxşı işləmək motivizasiyası yoxdur".

"Həqiqətə qalanda, keçmiş kriminal sistemindəki korrupsiya səmərəsi əldə edilən, hazırda isə boş qalmış yer indi ideoloji, konseptual əsasla doldurulmalı idi ki, bunu da hakimiyyət etməliydi" deyə yazılan məqalədə qeyd olunur ki, hazırkı hökumətin ideoloji əsasları yoxdur, baş nazir Nikol Paşinyan hələ inqilab zamanı bəyan etmişdi ki, bütün bunları aradan qaldıracaq. Nəticədə, Ermənistannın dövlət idarəçiliyinin bir adı var - nikolizm. Bu şəxs Nikol Paşinyandır, hansı ki, dövlət idarəçiliyi və hakimiyyət, bütövlükdə, nikolizmə xidmət edir.

"Ermənistanın hazırkı hökuməti formaca demokratik, daxildən isə avtoritar hökumətidir" qeyd edilən siyasi şərhdə son olaraq, bildirilir ki, bu hakimiyyət tamamilə Nikol Paşinyanın şəxsiyyəti üzərində bazalaşdırılıb: "Bu, yalnız hökumət üçün deyil, həm də dövlətçilik üçün çox təhlükəlidir. Ona görə ki, əgər biz Nikol Paşinyan barədə bir anlıq unutsaq, hakimiyyət kağız kartlarından düzəldilmiş evcik kimi dağılar".

**Rövşən NURƏDDİNOĞLU**



**MƏTLƏB**

*Metlebsalahov@mail.ru*

## Paşinyanı kim "hürdürür"?

Açıqdan-açığa belədir. Bu adam hakimiyyəti ələ keçirəndən (İlk dəfə Nikol Paşinyanın dərviş libasından dəhşətə gələn Serj Sarkisyanın bərələ qalmış gözlərini hələ də elə gözəl xatırlayıram ki!) bəri, özü barədə olduqca ziddiyyətli bir personaj yaradıb. N.Paşinyan açıq-aşkar kimlərinsə fikirlərini və maraqlarını səsləndirir. Özü də ən kritik məqamlarda təcrübəsizlikdən maskanın içəri hissəsini qapalı saxlamağı unudur bu siyasi "kukla". Onsuz da, bütün Ermənistanda, çobandan tutmuş akademikə kimi hər kəsdə özü barəsində "siyasi şpion" imici yaradan Nikolcan, getdikcə "kartları" açmağa başlayıb. Axı siyasi maskasını gizlətsə, nə mənası? Həm də onu da unutmuram ki, Ermənistanda heç kim təsadüfən, ya da belə desək, , narazı erməni xalqının "iradəsi ilə" hakimiyyətə gəlmir axı. Kremlin icazəsi olmadan, heç bir erməni buralarda özbaşına asqırmaq hüququna belə sahib deyil! Yalan deyirəm yoxsa? Yox tam düz deyirəm. Çünki qabağımda nəhəng tarix var. Orda hər şey olduğu kimi yazılıb.

Açıq şəkildə bir fakt ortadadır ki, bu adam siyasət əvəzinə, əllaməliklə məşğuldur və onu yönəldən siyasi "dirijorların" ssenarilərini icra edir. Yaxşı yadımdadır, N.Paşinyan hakimiyyət başına gəldiyi günlərdə, mən bu "siyasi dərvişin" siyasi səhnədə yalnız rol icraçısı kimi ortaya atıldığını yazmışdım. "Paşinyan kimin adamıdır?" başlıqlı yazımda qeyd etdiyim ehtimallar, açıqca real şəkildə ortaya çıxır. Ermənistanın baş naziri olmaqdan daha çox, az qala "siyasi pultla" idarə olunan oyuncaq kimi ad qazanan N.Paşinyan, öz müdafiə nazirinin yeni işğal planları barədəki fikirlərini həyasızcasına müdafiə edərək, əslində, Qarabağ münaqişəsinin həlli məsələsində Ermənistanın bir dövlət kimi söz sahibi olmadığını, özünün də tamam başqa bir missiya ilə erməni siyasətinə ATILDIĞINI etiraf etdi.

Təsəvvür edin, cəmi bir həftə öncə, Vyanada Azərbaycan Prezidenti ilə görüşən və münaqişənin sülh yolu ilə həlli barədə müzakirə aparan bu adam, bir neçə gün sonra öz müdafiə nazirinin dili ilə yeni işğal planları barədə iddialarını səsləndirir. Özü də bu iddia, erməni nazirin ABŞ-dakı erməni diasporu ilə görüşündə səsləndirilib. Həmin diaspora ki, N.Paşinyan, bütövlükdə, özünü ABŞ-dakı erməni diasporasının "qucağına atılmış uşaq" kimi təsəvvür edir. "Gözü çıxmış qardaşından" ibrət götürən N.Paşinyan, Vaşinqtondakı erməni maliyyə və siyasi kanalları ilə sıx rabitə yaratmağı və Donald Tramp administrasiyasına "pəncə atmağı" da hədəfləyib. Sözsüz ki, Vladimir Putinin izn verəcəyi həddə qədər. Çünki əziz Vladimir Vladimiroviç Yerevan küçələrində yeni imicdə ortaya çıxardığı siyasi kuklasının siyasi imicinin də qayğısına qalmamış deyil. Onu S.Sarkisyan kimi müti Kreml kuklası, yaxud Putinin əlini öpüb, alnına vuran birisi kimi təqdim etmək indiki situasiyada Moskvaya heç cür sərf etmir axı. Onsuz da, təklikdə Putin ona əlini də öpdürür, hələ qalsa...

Mən, N.Paşinyanın S.Sarkisyanın "fatihəsini oxuduğu" ilk gündə olduğu kimi, ində də tam qətiyyətlə deyirəm ki, "nikolcan" Kremldəki balacaboy Putinin razılığı olmadan, nəinki hakimiyyətə gələ, heç S.Sarkisyanla yan-yana durub, şəkil belə çəkdirə bilməzdi. ABŞ və ya başqa güclü Avropa dövlətlərinin Moskvanın "qulağının dibində", böyük ordu saxladığı xaraktersiz bir yoxsul ölkədə hakimiyyət "pultunu" ələ alması mümkünsüzdür. O dərəcədə mümkünsüzdür ki, bu barədə heç müzakirə belə aparmağın mənası yoxdur. Çünki daima Rusiyanın kisəsinə şərik olan bu ac-yalavac ölkə, Moskva üçün regionu nəzarətdə saxlamaq və başqalarına qarşı təzyiq etmək üçün əvəzsiz vasitədir. Rusiya tarix boyu belə bir "stukaçı" heç zaman çıraqla da gəzsə tapa bilməz. Bunu Kremldə əla bilirlər. Ermənilərin bu xarakteri tarix boyu hər zaman onların əsas "kozuru" olub. Bunu etiraf etməmək də olmaz.

Özü də tarix boyu Ermənistan Rusiya üçün bu missiyanı yerinə yetirib. Əvəzində, çörək və himayədar qazanıb. Bunu birdəfəlik bilmək lazımdır: Rusiya Ermənistanı heç bir zaman verməyəcək! O ki qaldı N.Paşinyanı "hürdürən" qüvvəyə, məncə, bu sualın cavabını min illər boyu axtarırıq. Dəhşətlisi odur ki, bu sualın cavabını bildiyimiz halda, hələ də başqalarından cavab axtarırıq...

## Erməni general: "Ermənistan ordusu hücum əmrini yerinə yetirmək gücündə deyil"

***Ermənistanda bir il əvvəl "məxməri inqilab"ın yaratdığı eyforiya artıq sona çatıb. Ölkədə keçirilən aksiyalarda narazı vətəndaşlar məyus olduqlarını tez-tez dilə gətirirlər. Hətta Paşinyan hakimiyyətinə dəstək verən qüvvələr də onun siyasətini və komandasını sərt tənqid etməyə başlayıblar.***

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, bu fikirlər Ermənistan ordusunun generalı Ter-Tadevosyanın ölkənin müdafiə nazirinin ünvanına səsləndirdiyi bəyanatda yer alıb. O, David Tonoyanı səriştəsizlikdə günahlandıraraq qeyd edib ki, Ermənistanın müdafiə naziri ölkənin ictimai televiziyası vasitəsilə çıxış edərək böyük fikirlər səsləndirir, hərbi əməliyyatlardan danışır. Bu, onun təcrübəsizliyindən və səriştəsizliyindən irəli gəlir. Əgər sənin xarici diplomatiyan istənilən səviyyədə deyilsə, hansı hərbi əməliyyatlardan danışmaq olar? İkincisi, bu gün Ermənistan ordusu hücum əmrini yerinə yetirmək gücündə deyil.



"Mən Tonoyana məsləhət görərdim bu cür bəyanatlarla özünü gülünc vəziyyətə saxlmasın. Bu yaxınlarda Meğridəki Aqarak batalyonunda nələrin yaşandığı hamınıza bəllidir... Bunlar sadəcə qığılcımdır", - deyə Ter-Tadevosyian vurğulayıb.

Bundan başqa, Ermənistan xüsusi istintaq komitəsi eks-prezidentlər Robert Koçəryan və Serj Sarkisyanın yaxın ətrafı ilə bağlı araşdırmaları gücləndirib. Sarkisyanın yaxın qohumu keçmiş deputat, İnterpol tərəfindən axtarışda olan general Mihran Poğosyan küllü miqdarda valyutanın xaricə çıxarılmasında şübhəli bilinir. Ona qarşı cinayət işi açılıb. Hazırda Latın Amerikasında yaşayan sabiq general barəsində deyilənləri təkzib edib və Ermənistana bir daha qayıtmaq fikrində olmadığını bildirib. Xüsusi istintaq komitəsinin sədri "1 mart" hadisələri ilə bağlı həbsdə saxlanılan Robert Koçəryanın vəkillərinin ali və apellyasiya məhkəmələrinə şikayətlərini əsassız sayıb.

# Əli Kərimli kar, kor və laldır

***Müxtəlif ölkələrdə gizlənərək Azərbaycan dövləti və xalqı əleyhinə antitəbliğat kampaniyası aparan mühacirət həyatı yaşayan "söyüş qrupu"nun üzvləri olan şəxslər, bəzən özləri-özlərini ifşa etmiş olurlar. Misal kimi Rafael Piriyevlə Məhəmməd Mirzəli arasında ayrılan maliyyə vəsaiti üstündə bir-birini tənqid və təhqir etmələrini göstərmək olar.***

Bu günlər isə, qondarma vəkil Qurban Məmmədovun "Azərbaycan Xalq Hərəkatı" daxilində parçalanmaları genişləndirmək və rəqiblərini sıradan çıxartmaq yönümündə lent yazısı yayılıb. Sual yaranır, nəyə görə müxaliflər ancaq biri-birini sıradan çıxartmaq üçün güclərini daha çox səfərbər edirlər? Söhbət etdiyimiz müsahiblərimiz müxalifəti bir neçə fondların və qüvvələrin idarə etdiyini, bu səbəbdən də, pul bölgüsündə bir-biri ilə qarşıdurmaya getdiklərini bildirdilər.

## Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli: "Müxalifət liderləri bir-birinə nifrət edirlər"



- Hər zaman bildirmişəm ki, bu müxalifət liderləri bir-birinə heç vaxt səmimi olmayıb, biri-birini sevməyib və qəbul etməyiblər. Demək olar ki, həmişə bir-birinə qarşı intriqa aparıb və biri digərini gözdən salmaqla sıradan çıxartmağa çalışıblar. Səbəb də ana müxalifət və ya müxalifətin lideri olmaq kimi iddialarını reallaşdırmaq olub. Hədəflərinə nail olmaqla, xaricdən ayrılan maliyyə vəsaitinə daha çox sahib olmağa çalışırlar. Bu baxımdan da, müxaliflər bir-birini sıradan çıxartmaq üçün əllərindən gələni ediblər. Belə olan halda da, müxalifətdə bu cür vəziyyət yaranır. Müxalifət düşərgəsini təmsil edən şəxslərin şəxsi ambisiyalarının olması onları çox acınacaqlı vəziyyətə salıb. Üzdə səmimi görünməyə çalışsalar da, əslində, müxalifət liderləri bir-birinə nifrət edirlər. Yaradılan birliklər və ya irəli sürülən ideyalar da mənasızdır, xarici ağalarının sifarişləridir. Reallıqda yaradılan bloklar, bir-birinə hədsiz nifrət bəsləmələri səbəbindən iflasa uğrayır. Bu cür müxalifət dağılmağa və sıradan çıxmağa məhkumdur. Yəqin ki, yaxın vaxtlarda, bu proqnozlar reallığa çevriləcək.

## Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Müxalifət liderləri xaricdən pul dilənirlər"



- Bu gün özünü müxalif lider sayan virtual müxaliflərin tez-tez öz aralarında davalarının şahidi oluruq. Bu insanlar şər, böhtan və söyüş variantlarından istifadə edərək, sosial şəbəkələrdə müəyyən baxış elektoratı yığırlar və sonra başlayırlar xaricdə yaşayan azərbaycanlılardan pul dilənməyə. Hər dəfə də bunlar müəyyən bank hesablarını bəyan edirlər. Sonra artıq özlərini lider hiss etməyə başlayırlar. Artıq bunlarda eyforiya başlayır. Bir anlıq, hiss edəndə ki, boş-boş danışmaqdan başqa heç nəyə qadir deyillər, xalq bunları heçə sayır və başlayırlar bir-biri ilə savaşmağa. Beləcə, uğursuzluqlarının səbəbkarı kimi digərlərini günahlandırırlar. Bunların arasında olan davaların digər səbəbləri də var, məsələn, maliyyə davaları və s. Amma əsas səbəblərdən də biri Don Kixot" kimi bir-biriləri ilə, yəni "yel dəyirmanları" ilə döyüşməkdir.

**GÜLYANƏ**

# Mitinq qovğası

*Və yaxud qrant savaşı*

***Müxalifət liderlərinin sözləri tükəndiyi üçün mitinq şousunu ortaya atmaqla düşərgədə ziddiyyətləri bir qədər də dərinləşdiriblər. Belə ki, "Milli Şura"nın Müsavat partiyası ilə birgə təşkil etdiyi mitinq şousu saqqız kimi uzandıqca, uzanır.***



Ən maraqlısı isə odur ki, 25 ilə yaxındır ki, keçirdikləri mitinqləri uğursuz və biabırçılıqla bitsə də, yenə də həyasızcasına mitinq deyib dururlar. Aksiyaya az adam gəlsə də, bir məqsədləri var: ettökən çıxışlarını paylaşaraq, özlərini hansısa xarici qüvvələrə göstərmək. Elə götürək AXCP-nin "primadonnası" Gültəkin Hacıbəylinin aksiyalardakı çıxışının videogörüntüsünü paylaşaraq, yazır ki, guya mitinq, beləcə, "möhtəşəm" alınıb. Halbuki onun çıxışı zamanı stadionda ağız deyəni qulaq eşitmirdi. Eləcə də, Arif Hacılı və ya Əli Kərimli olsun...

## Nankorluq onun xislətindədir

"Milli Şura"nın "primadonnası" G.Hacıbəylidən başqa bir şey gözləmək də olmaz. Çünki G.Hacıbəyli xarici ölkələrdə fəaliyyət göstərən ermənipərəst anti-Azərbaycan meyilli qüvvələrə nökərçilik etməklə, mənfəət əldə etmək üçün dəridən-qabıqdan çıxır. Təəccüblü də deyil. Çünki bu, o, G.Hacıbəylidir ki, hər sifətdə ola bilir. Onun xisləti nankorluq və satqınçılıq olub. G.Hacıbəyli kimilərin tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı vacib bir töhfə olmayıb.

## Əlac qışqırmağa qaldı...

Yazıqlar olsun o boğaza- nə qədər qışqırmaq, böhtan atmaq olar? Görünür, bu səbəbdəndir ki, A.Hacılı və Ə.Kərimli qışqıra-qışqıra çıxış etdilər. Ancaq nə faydası? Qışqırsalar da, onları eşidən yox idi. Çünki bu siyasətbazlar, əslində, müxalifliyi bir əqidə kimi görmürlər, xaricdəki Azərbaycan əleyhdarlarının və bəzi siyasi dairələrin şirnikləndirici təkliflərindən, maliyyələrindən yararlanmaq vasitəsi kimi fayda götürürlər. Kiçik bir xatırlatma edim ki, buna misal olaraq, ölkəyə qrant, yardım gəlməsinə nəzarət güclənəndən sonra, əli-qolu yanına düşən Ə.Kərimli öz müavini Gözəl Bayramlını Gürcüstana göndərirdi. O da hər gediş-gəlişində gizlədilmiş xarici valyutaları öz rəhbərinə çatdırırmış. Nəticədə, bir gün ilişdi. Bu gün də bu mitinqlər xaricdən maliyyə yardımlarının artırılmasına hesablanıb. Ona görə də, bu gün mitinq keçirmək istəklərini dönə-dönə deyirlər. Ancaq çi fayda...

## Pərçimlənmişlər "bir" olmaq istədilər, amma...

AXCP sədri Ə.Kərimli, "Milli Şura"nın "lideri" C.Həsənli, G.Hacıbəyli, Müsavat başqanı A.Hacılı və onlara pərçimlənmiş bəzi qüvvələr "bir" olmaq istədilər, amma elə parçalandılar ki... Belə də olmalı idi. Çünki siyasi savadı olmayan satqınların ümidlərinə qalanda... Çünki bu işdə xaricdə yaşayan, satılmış qüvvələrin də rolu az deyil. Sosial şəbəkələrdə "demokrat" maskası altında ölkəmizin əleyhinə çirkin təbliğat kampaniyasına rəvac verənlər və onlara dəstək verən müxalifət "liderlər"i unudurlar ki, bu xalq heç vaxt səviyyəsiz, siyasət adına ləkə olan fəaliyyəti və ən əsası, xəyanəti və satqınlığı bağışlamır!

Son zamanlar Avropanın müxtəlif ölkələrində yaşayan və adını azərbaycanlı qoyan bəzi savadsız, cahil, milli mənlik şüurundan məhrum Orduxan Teymurxan, Tural Sadıqlı, Vidadi İsgəndərli və b. kimi şəxslərin hərəkətləri heç bir etik normaya sığmır. Tam çılpaqlığı ilə görünür ki, onların əsl məqsədi beş-üç qəpik tulapayı müqabilində xidmət etdikləri anti-Azərbaycan dairələrin əmr və sifarişlərini yerinə yetirmək üçün yaranmış şəraitdən maksimum dərəcədə yararlanaraq, ağalarının təşəkkürünü və maliyyənin miqdarını artırmaqdır.

Uzun illər bu dövlətin çörəyini yemiş, sonradan əqidələrini 180 dərəcə dəyişən, Vətənindən, dövlətindən üz çevirən G.Hacıbəyli, Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı, L.Yunus və Avropada eşələnənlərin hərəkətlərinin bir adı var - NANKORLUQ!

**R.HÜSEYNOVA**

# Müxalifət düşərgəsi "rozısk" verib

*Cəmil Həsənli: "İlqar Məmmədov satqını partiyasında axtarsın"*

***Yenə də müxalifət düşərgəsində ara qarışdı, məzhəb itdi. Deyir, gözəl ağa çox fərli gündə idi, vurub öz gözünü çıxartdı. Daxili problemlər və qarşıdurmalar içində boğulan müxalifət düşərgəsində AXCP sədri Əli Kərimlidən asılı olan "Milli Şura" sədri Cəmil Həsənli "REAL"-ın rəhbəri İlqar Məmmədovun partiyasının satqınlardan ibarət olduğunu söyləyib.***

## İlqar Məmmədov: "Belə "rəqib"lə saxta bir şou düzəltməyə nə var ki?"



"REAL"-ın sədri İ.Məmmədov feysbuq səhifəsində C.Həsənliyə cavab olaraq bildirib ki, qoca professorun nə cavanlıqda, nə də qocalandan sonra ağlı artmayıb: "C.Həsənlinin "REAL"-ı satqınlıqda ittiham etməsi mənə indi tam aydın gəlir ki, nəyə görə hakimiyyətlərinin davamı üçün bu iqtidar 2013-cü ildə məni həbs edib prezident seçkisindən kənarda qoydu, C.Həsənlini isə özlərinə "rəqib" təyin etdilər.

## Sərdar Cəlaloğlu: "Kimsə bəyan edirsə ki, "asıb-kəsərəm", onun yanında agent daha çoxdur"

ADP sədri Sərdar Cəlaloğlu sözügedən məsələyə münasibət bildirərkən, söyləyib ki, müxalifət düşərgəsi illərdir ki, "agent" axtarışındadır: "Düşərgədə olan partiya sədrləri, firqələrin aparıcı fiqurları zamanzaman bir-birini satqınlıqda və hakimiyyətlə əməkdaşlıqda ittiham edirlər. "Azərbaycan Xalq Hərəkatı" içində olanlar qarşılıqlı ittihamlar irəli sürür, "Milli Şura" ilə "REAL" partiyası üzvləri sosial şəbəkələrdə replikalar atırlar.



Bunun psixoloji səbəbləri var, yoxsa bu səbəblər gerçəklikdən doğan ittihamlardır? Əlbəttə ki, real gerçəklikdir. Necə deyərlər, kor-kora kor deməsə, bağrı çatlar. Bəzi liderlər stəkana dolu tərəfdən, bəziləri yarısından baxırlar. Mitinqə gedən seçkiyə gedənə xain deyir, seçkiyə vaxtilə gedənlər indi seçkidən imtina edirlər. Onda hamı xaindir. Bu, siyasi cəhətdən savadsızlıqdır. Elə adamlar var ki, bir müddət siyasətdə olurlar, sonra qeybə çəkilirlər, fasilə verib, yenə fəal olurlar".

S.Cəlaloğlu onu da bildirib ki, müxalifət liderləri özləri elə satqınçılıq edir: "Boş-boş hay-küy salırlar. Amma kimsə bəyan edir ki, asıb-kəsərəm, hökuməti yıxaram, elə edərəm-belə edərəm, onun yanında agent daha çoxdur. Liderlərin çoxu hökumətə "Məşədi İbad" filmindəki Qoçu Əsgər deyir ki, aç qapını, gəlib səni öldürək. Yaxşı, sən mitinq elə, o da tutmasın, sən də gəlib onu yıxasan? Müxalifətin indiki fəaliyyəti "evcik-evcik" oyununa oxşayır. Ortada heç nə yoxdur, orada "REAL"-"Milli Şura" qovğası gedir, burada "AXH" bir-birini qırır... Xalq qoşulmadığı halda, bu gün müxalifətin elədikləri "evcik-evcik" oyununa oxşayır. Yaxşı olar ki, siyasətə birdəfəlik son qoysunlar. Ayıbdır, satqın elə onların özlərinin içindədir. Xalq da bunu görür və onlara nifrət edir".

**Rəfiqə HÜSEYNOVA**

# BMT-nin “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Konvensiya” və Azərbaycan

***BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitəsinin XVIII sessiyasının 1998-ci il yanvarın 20 və 23-də keçirilmiş iclaslarında Azərbaycanda Konvensiyanın həyata keçirilməsi haqqında hesabat məruzəsi dinlənilmişdir. Yeri gəlmişkən, həmin sessiyada Azərbaycanı Fatma Abdullazadənin başçılığı altında rəsmi nümayəndə heyəti təmsil edirdi.***

Sözügedən qurum özünün yekun şərhlərində məruzəni bəyəndiyini bildirmişdi: “Komitə ratifikasiyadan 1 il keçdikdən sonra məruzənin təqdim edilməsini yüksək qiymətləndirir və buna rəğmən, yüksək səviyyəli nümayəndə heyəti tərəfindən əlavə şifahi məlumatların mükəmməl şəkildə təqdim olunmasını alqışlayır”. Bununla yanaşı, komitə hələ də görüləsi işlərin zəruri olduğu problem sahələri də göstərirdi. Ora Fəaliyyət Platformasının icrası ilə əlaqədar hökumət tərəfindən müvafiq planın hazırlanmaması, ölkənin inkişaf prosesində qadınların hərtərəfli iştirakı üçün ardıcıl və müfəssəl strategiyaya şərait yaradan milli mexanizmlərin rolunun hələ də dəqiqləşdirilməməsi, de-yure və de-fakto bərabərliyi arasında uyğunsuzluqların hələ də mövcudluğu, qadınlar (o cümlədən, ali təhsilli) arasında yoxsulluğun və işsizliyin faiz dərəcəsinin artması, ana, həmçinin, uşaq ölümünün narahatlıq doğuracaq səviyyədə olması, qadınlara qarşı məişət zəminində zorakılıq hallarının çoxalması, qadınlar arasında vərəm və yoluxucu xəstəliklərin yayılması, kənd yerlərində qadınların vəziyyəti, qaçqın qadınların qeyri-müəyyən maddi və psixoloji şəraitləri və s. məsələlər daxil idi. BMT strukturunun Azərbaycan tərəfinə təqdim etdiyi təklif və tövsiyələr də göstərilən problemlərin çözümü ilə əlaqəli idi. Tövsiyələrdə həm qadınların sosial və iqtisadi status və durumlarının yaxşılaşdırılmasına dair istəklər, həm də qadınların müvafiq qanunvericilik vasitəsi ilə irəlilənməsi üçün milli mexanizmlərin rolunun müəyyənləşdirilməsi ilə bağlı müddəalar yer almışdı.

Təbii ki, “Yekun şərhlərdə” qeyd olunan problemlərin böyük əksəriyyəti sosial-iqtisadi xarakterə malik idi. Onları keçid dövrü və sistem transformasiyaları doğurmuşdu və ilk növbədə, Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində onlar daha ağır miqyas və məzmun kəsb etmişdi. Azərbaycan hökuməti bu problemlərin həllini öz fəaliyyətinin prioritet istiqaməti hesab edirdi və onların aradan qaldırılması sahəsində mühüm addımlar atırdı.

“Konvensiyanın Fakultativ Protokolunu da imzalamışdı. Bu Protokola əsasən, fərdi və ya qrup şəklində hər bir şəxs Konvensiyada nəzərdə tutulmuş hüquqların pozulması barədə birbaşa BMT-nin “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması” Komitəsinə müraciət edə bilər.

1997-ci ildə respublika hökuməti ilə olan razılaşmaya əsasən, BMT İnkişaf Proqramının “Gender və İnkişaf” layihəsinin bir hissəsi kimi Azərbaycanda Rəna İbrahimbəyovanın koordinatorluğu ilə “Gender İnkişafda” layihəsinin reallaşdırılmasına başlanıldı. Bu layihə, ilk növbədə, CEDAW Konvensiyasına uyğun olaraq, respublikada gender münasibətlərini araşdırmaq və Azərbaycan qanunvericiliyinin gender ekspertizasını həyata keçirmək məqsədləri güdürdü. Sözügedən layihədə 3 istiqamətdə işlərin aparılması planlaşdırılırdı: ölkədə genderfəaliyyəti üçün koordinasiya və informasiya mərkəzi qismində fəaliyyət göstərilməsi, Milli Fəaliyyət Platformasının işlənməsi üçün milli mexanizmlər yaratmaq cəhdlərinin dəstəklənməsi və gender məsələləri ilə məşğul QHT-lərin fəallaşmasına yardım edilməsi.

“Gender İnkişafda” layihəsinin çərçivəsində genderlə əlaqəli institusionallaşma üzrə təşkilati məsələlər haqqında məlumatların yayılması və yenicə yaradılmış Qadın Problemləri üzrə Dövlət Komitəsinə operasional, metodiki və maliyyə dəstəyi göstərilməsi, Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda gender tədqiqatları şöbəsinin, bölgələrdə gender mərkəzlərinin yaradılması, qadınların seçki kampaniyalarına daha fəal surətdə qatılması həyata keçirilirdi. Layihənin reallaşdırılması dövründə bir sıra tədbirlər keçirilmiş, müxtəlif bülletenlər buraxılmışdır.

S.Abbasova yazır: “1999-cu il iyulun 1-nə kimi Azərbaycanda qadınların əmək hüquqları hələ 1971-ci il dekabrın 10-da qəbul edilmiş “Əmək Qanunları Məcəlləsi” ilə tənzimlənirdi. Qanunun qəbulundan ötən vaxt ərzində, ona 46-dək əlavə və dəyişiklik edilmişdi. Azərbaycan vətəndaşları tərəfindən əməyə və əməyin bərabər mükafatlandırılmasına dair hüquqlarının həyata keçirilməsi ilə bağlı bütün məsələləri nizamlayan bu məcəllə sovet etakratik-patrimonialist ruhunda tərtib edilmişdi. Orada qadınların əmək hüququn dövlətin xüsusi qayğı və himayə obyekti kimi qavranılırdı. Təsadüfi deyildir ki, məcəllənin XII fəsli “Qadınların əməyi” adlanırdı və qadınların əmək münasibətləri sahəsində geniş hüquqlarını təsbit edirdi. Onların sırasında hamiləliklə və ya uşağı yedizdirməklə əlaqədar səbəblərə görə qadınları işə qəbul etməkdən imtinanın, yaxud əmək haqqının azaldılmasının, hamilə qadınların, 1 yaşa çatmamış uşaqları olan uşağa qulluq etmək üçün məzuniyyət hüququndan istifadə edən qadınların işdən çıxarılmasının, ağır işlərdə və əmək şəraiti zərərli işlərdə qadın əməyinin tətbiqinin, hamilə qadınların və 2 yaşına çatmamış uşağı olan qadınların gecə işinə və iş vaxtından artıq işlərə cəlb edilməsinin yasaqlanması, gecə işlərində qadın əməyinin məhdudlaşdırılması və s. müddəalar yer almışdı. Qanunla, həmçinin, hamilə və yaş yarıma çatmamış uşaqları olan qadınların daha yüngül işə keçirilməsi, hamilə qadınlara sanatoriya və istirahət evi putyovkaları verilməsi, maddi yardım göstərilməsi, qadın əməyinin geniş tətbiq edildiyi müəssisələrdə, təşkilatlarda ana və uşağa xidmətin təşkili nəzərdə tututmuşdu”. Yeri gəlmişkən, Heydər Əliyevin tövsiyəsi ilə 1996-cı ildə Əmək Qanunları Məcəlləsinin 173-cü maddəsində edilmiş dəyişiklik ilə 3 yaşına çatmamış uşağı olan qadıların işdən çıxarılması qadağan edilirdi. Belə bir məqamı, qeyd edərdik ki, 1997-ci ildə 3 yaşına kimi uşaga baxan ananın qismən ödənilən məzuniyyəti ayda 11000 manat təşkil edirdi ki, bu da, o dövrün məzənnəsi ilə təqribən 2,5 dollara bərabər idi. Təbii ki, bu məbləğ yetərsiz olduğundan, bir çox qadın, ailədə uşağa baxan olduğu halda, işə çıxmağa üstünlük verirdi.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev Cənablarının 1997-ci il iyunun 26-da imzaladığı “Əhalinin sağlamlığının qorunması haqqında” qanunun 17-ci maddəsi ilə hər bir qadın hamiləlik, doğuş və doğuşdan sonrakı dövrdə dövlət səhiyyə sisteminin müəssisələrində ixtisaslaşdırılmış tibbi yardımla pulsuz təmin olunurdu. Bununla da, ölkəmizin ali hakimiyyəti “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiyasının 12-ci maddəsi üzrə nəzərdə tutulmuş müvafiq öhdəliyə tam əməl etmiş olurdu.

Yeri gəlmişkən, 1996-cı ildən etibarən Səhiyyə Nazirliyi BMT-nin Əhali Fondu ilə birgə respublikada qadınların səhiyyə sahəsində yüksək keyfiyyətli xidmətlərdən istifadəsini genişləndirməyə yönəlmiş müəyyən fəaliyyət proqramları həyata həmin ildən ölkədə BMT-nin ailə planlaşdırılması üzrə proqramı çalışmaqdadır. Bu proqram üzrə ailə planlaşdırılması üzrə həkimlər üçün treninqlər keçirilmiş, yenicə yaradılmış ailə planlaşdırma mərkəzlərinə texniki yardım göstərilmişdir.

S.Abbasova yazır: “1990-cı illərin sonlarına doğru Ümummilli Lider Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində qadınların dövlət idarəçiliyinə cəlb olunmalarında müəyyən pozitiv irəliləyişlər hiss olunurdu. 1995-ci ildə Milli Məclisdə qadınlar 15 deputatla təmsil olunmuşdular. Parlamentin Təbii Ehtiyatlar, Energetika və Ekologiya Məsələləri Daimi Komissiyasının sədri və aparatın sosial qanunvericilik şöbəsinə müdiri vəzifələrini qadınlar tutmuşdular. Həmçinin, Prezidentin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri, Azərbaycan Respublikası Prezidentinin köməkçilərindən biri, Ali İqtisad Məhkəməsinin sədri, ədliyyə naziri, səhiyyə nazirinin müavini, Nazirlər Kabinetinin şöbə müdirləri (2 nəfər) qadınlar idi”.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

S.Abbasovanın qeyd etdiyi kimi, 1993-1997-ci illər istər hüquqi dövlət quruculuğu, istərsə də gender qanunvericiliyinin formalaşması sahəsində olduqca mühüm mərhələni təşkil edir. Gətirilən faktlardan aydın olur ki, bu iki proses qırılmaz surətdə çulğaşaraq, Ulu Öndər Heydər Əliyevin dövlətçilik strategiyasının əməli gerçəkləşdirilməsinin bariz təzahürünü təmsil edirdi. Bəhs edilən dövrdə Heydər Əliyevin titanik səyləri sayəsində müstəqil respublikamızda müasir dövlətçilik modifikasiyasının və vətəndaş cəmiyyətinin təşəkkülü üçün sanballı hüquqi-normativ təməl yaradılmışdır. Formalaşmaqda olan hüquqi dövlətin önəmli struktur atributu qismində müxtəlif sosial-demoqrafik kateqoriyaların qanunvericilik səviyyəsində hüquq və azadlıqlarının təsbiti çıxış edirdi. Belə kateqoriyalardan birinin - qadınların sosial-siyasi status və durumu sözügedən dövrdə ciddi transformasiyaya məruz qalırdı. Ümummilli Liderin tarixi xidməti onda idi ki, qadınlarımızın əvvəlki onilliklərdə əldə etdikləri və modern çağı üçün səciyyəvi olan sosial və mədəni nailiyyətlərinin, nəinki tam və ya qismən itirilməsinə, yaxud da involyusiyasına yol vermədi, əksinə, onun təşəbbüsü ilə, gender inkişafı baxımından, qabaqcıl dünya təcrübəsinin ölkəmizdə tədricən tətbiq olunmasının qanunvcricilik əsasları yaradıldı. Bu zaman Azərbaycanın sosiomədəni şərtləri və xüsusiyyətləri, eləcə də, sovet dövrünün emansipasiya praktikalarının zəngin təcrübəsi də nəzarə alınırdı. Azərbaycan Respublikası bəhs edilən dönəmdə gender bərabərliyinin təminatına yönəlmiş demək olar ki, bütün beynəlxalq Konvensiyalara və sazişlərə qoşulmuş, istər ölkənin Əsas Qanununda, istərsə də müxtəlif qanunvericilik aktlarında və müvafiq məcəllələrdə hüquqi bərabərlik prinsipini dönmədən həyata keçirmişdi. Əminliklə söyləyə bilərik ki, BMT-nin “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyasında nəzərdə tutulmuş bir çox prinsipial müddəa 1993-1997-ci illərdə özünün qanunvericilik həllini tapmışdı. Məhz həmin illərdə əldə edilmiş təcrübə və yaradılmış hüquqi-normativ baza sonrakı dövrdə gender düzəninin yeni institusional səciyyə kəsb etməsini, qadınlarımızın ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında daha fəal iştirakını, gender bərabərliyinin de-yure səviyyədən tədricən de-fakto səviyyəyə keçidini təmin edən möhkəm təmələ çevrildi.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

## Bakcell abunəçiləri minlərlə kinoya pulsuz baxmaq imkanı əldə edib

**Bakcell "MEGOGO" ilə əməkdaşlığa başlayıb**

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti məşhur MEGOGO video xidməti ilə əməkdaşlığa başlayıb. Bu əməkdaşlıq çərçivəsində Bakcell abunəçiləri 10 minə qədər lisenziyalı film, cizgi filmi, televiziya serialı və digər video məzmuna 12 aya qədər PULSUZ baxmaq imkanı qazanıblar.




MEGOGO MDB ölkələri və Şərqi Avropa regionunun ən böyük beynəlxalq OTT/VOD xidmətləri təminatçısıdır. Bakcell və "MEGOGO"nun birgə eksklüziv təklifində ən vacib məqamlardan biri də bu paketə Azərbaycan dilinə dublyaj edilmiş 400-dən çox filmin daxil edilməsidir.

Xidmətə bütün Bakcell abunəçiləri qoşula bilər (Cin, Klass və Biznes individual). Bu fürsətdən yararlanmaq üçün müştərilər öz Bakcell nömrələri ilə www.megogo.net Internet səhifəsində və ya "Google Play Store" və "Appstore"dan yüklənilən MEGOGO mobil tətbiqetməsində qeydiyyatdan keçməlidir. Abunəçinin qoşulduğu tarif paketindən asılı olaraq xidmətə 6-12 ay arasında pulsuz abunəlik təqdim edilir. PULSUZ istifadə müddəti bitdikdən sonra abunəçilər xidmətdən ayda cəmi 3 AZN xidmət haqqı ödəməklə yararlana bilərlər.

Qeyd edək ki, bu tərəfdaşlıq çərçivəsində MEGOGO xidmətindən 5 fərqli cihazda və 30-dan çox cihaz platformasında istifadə etmək mümkündür. Xidmətdən istifadə etmək üçün kəsintisiz internet bağlantısı (mobil və yaxud stasionar) tələb olunur.

Bu eksklüziv təklif və Bakcell şirkətinin digər sərfəli məhsul və xidmətləri barədə daha ətraflı məlumat www.bakcell.com səhifəsində yerləşdirilib. Azərbaycanın ən müştəri yönümlü və innovativ telekommunikasiya xidmətləri təchizatçısı olan Bakcell öz abunəçilərini rəqəmsal müştəri təcrübəsi ilə yanaşı ən yeni məhsul və xidmətlərlə təmin edir. Şirkət bunun üçün zəruri olan sürətli və yüksək keyfiyyətli mobil rabitə şəbəkəsini qurmağa nail olub. Bakcell müasir mobil rabitə istifadəçilərini bundan sonra da ən son, ən rahat və ən maraqlı xidmətlər ilə təmin etmək məqsədilə innovasiya sahəsində İLK-lərə imza atmağa davam edəcək.

## Filippində alimlər naməlum insan növünün qalıqlarını aşkar ediblər



Filippində alimlər naməlum insan növünün qalıqlarını aşkar ediblər. AZƏRTAC xəbər verir ki, bu barədə "Nature" jurnalı məlumat yayıb.

Bildirilir ki, Filippinin Luson adasındakı Kalyao mağarasında üç şəxsə məxsus olmuş barmaq və bud sümüklərinin, həmçinin dişlərin qalıqları aşkar edilib. Onların yaşının təqribən 50-67 min il arası olduğu qeyd edilir.

Tədqiqatçıların rəyinə görə, tapılan fraqmentlərin morfoloji əlamətlərinin məcmusu deməyə əsas verir ki, bu qalıqlar indiyədək məlum olan insan növlərinə, o cümlədən nə "Homo floresiensis"ə, nə də "Homo sapiens"ə aid deyil. Bu qalıqlar tamamilə yeni insan növünə aiddir və onun tapıldığı Luson adasının adına uyğun olaraq "Homo luzonensis" adlandırılması qərara alınıb. Alimlərin rəyinə görə, yeni insan növünün tapılması Afrikadan kənarda onun müxtəlif növlərinin olduğunu deməyə əsas verir və təkamülün çox mürəkkəb xarakterini təsdiq edir.

## İki qadın güləşçimiz Avropa çempionatının yarımfinalında!



Rumıniyanın paytaxtı Buxarestdə güləş üzrə Avropa çempionatı davam edir. Dördüncü yarış günündə - aprelin 11-də daha 4 qadın güləşçimiz mübarizəyə qoşulub. Tatyana Varansova (53 kq) ilk mərhələdə ikiqat dünya və Avropa çempionuna müqavimət göstərə bilməyib.

Alyona Kolesnik (57 kq) startda isveçli rəqibini elə ilk dəqiqədə "tuşe" ilə məğlub edib. Macar idmançı ilə görüşə də yaxşı başlayan Kolesnik 5 xal fərqlə önə çıxıb. Ancaq üstünlüyünü qoruya bilməyən güləşçimiz xalçadan məğlub ayrılıb.

Millimizin üzvü Tatyana Omelçenko (62 kq) da qitə birinciliyinə inamlı qələbə ilə start verib. Təmsilçimiz Norveç idmançısını vaxtından əvvəl üstələyib. T.Omelçenko daha sonra gücünü polşalı rəqibinə göstərib və qalib gələrək adını yarımfinala yazdırıb. Çempionatda 65 kiloqram çəki dərəcəsində mübarizə aparan Elis Manolova ilk mərhələdə çətinliklə də olsa, isveçli həmkarına qalib gəlib. Güləşçimiz 1/4 finalda alman güləşçini də məyus edərək yarımfinala yüksəlib.

## Bakıda keçiriləcək Formula 2 yarışlarının təqvimi açıqlanıb




Aprelin 26-28-də Bakı şəhər halqasında Formula 2 yarışları keçiriləcək. Yarışda 10 komandadan 20 pilot birincilik uğrunda mübarizə aparacaq. Aprelin 26-da saat 11:30-da sərbəst yürüşlər təşkil olunacaq. Həmin gün saat 16:50-də təsnifat yarışlarına start veriləcək. Aprelin 27-də saat 13:10-da birinci, bir gün sonra isə 14:15-də ikinci yarış keçiriləcək. İlk yarışda pilotlar 32, növbəti yürüşdə isə 23 dövrə vuracaqlar.

Bəhreyndə təşkil olunan ilk yarışdan sonra hesabında 37 xal olan "UNİ-Virtuosi Racing" komandasının üzvü italiyalı Luka Qiotto pilotların sıralamasında birinci pillədə yer alıb. "DAMS"ın pilotları Nikolas Latifi (Kanada) 35 xalla ikinci, braziliyalı Serxio Sette Kamara isə 27 xalla üçüncüdür. On bir mərhələdən ibarət yarışa sentyabrın 27-29-da Rusiyanın Soçi şəhərində yekun vurulacaq.

## Messinin burun sümüyü çatlayıb




İspaniyanın "Barselona" futbol klubunun hücumçusu Lionel Messi UEFA Çempionlar Liqasında "Mançester Yunayted"lə qarşılaşma zamanı zədələnib. TASS agentliyi xəbər verir ki, 31 yaşlı argentinalı hücumçunun görüşün birinci hissəsində rəqib komandanın futbolçusu Smollinqin dirsəklə zərbəsi nəticəsində burun sümüyündə çat yaranıb. Əlavə olaraq, Messinin göz qapağına da zərər dəyib. Argentinalı hücumçunun son durumu tibbi müayinədən keçdikdən sonra müəyyənləşəcək.

Qeyd edək ki, UEFA Çempionlar Liqasının dörddəbir finalında "Barselona" və "Mançester Yunayted" arasındakı cavab qarşılaşması aprelin 16-da İspaniyadakı "Kamp Nou" stadionunda keçiriləcək.

## Pele əməliyyat olunacaq



Sidik kanallarında infeksiya aşkarlanan Pele San-Paulu klinikalarının birində müalicəsini davam etdirir. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, üçqat dünya çempionu əməliyyat olunacaq. Xatırladaq ki, əfsanəvi veteran futbolçunun səhhətində aprelin 2-dən problem yaranıb. O, Fransa səfəri zamanı PSJ-nin gənc ulduzu Kilian Mbappe ilə görüşmüş, ardından halı pisləşdiyindən Parisdəki klinikalardan birinə yerləşdirilmişdi.

### ELAN

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Abşeron rayonu Saray qəsəbəsində Əmiraslanova Təranə Məmmədşah qızına verilmiş 0,04 ha torpaq sahəsinə aid Abşeron Ərazi İdarəsi tərəfindən verilmiş ÇIXARIŞ (№ 0340714) itdiyi üçün etibarsız sayılır. Torpaq sahəsinin planı və ölçüsü sənədi (reyestr nömrəsi: 308013036385).

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**